# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Leyla Əliyeva "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzi ilə tanış olub



5

# Bəşəri amallara sadiqlik!



5

*Azərbaycan dövlətlərin ərazi bütövlüyünü dəstəkləyir və müstəqil siyasət yürütmələrinə böyük önəm verir".*

SƏS

№ 157 (7325)

2 sentyabr 2025-ci il.
Qiymәti 60 qəpik

# Azərbaycan – dünya birliyi üçün mühüm və etibarlı tərəfdaş!



*Prezident İlham Əliyev Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüşdə iştirak edib, bir sıra mühüm görüşlər keçirib*

2

## Peşə məktəblərinə gedək, peşə öyrənək...



13

## Bəhruz Quliyev "Trend" BİA-nı təbrik etdi



5

## Xoşbəxtsinizmi?



15

## Yaxın Şərq, Şimali Afrika və Cənubi Qafqaz...



12

## Bir dəli quyuya daş atanda...



10

# Azərbaycan – dünya birliyi üçün mühüm və etibarlı tərəfdaş!






## *Prezident İlham Əliyev Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüşdə iştirak edib, bir sıra mühüm görüşlər keçirib*



## *İlham Əliyev: "Biz beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunmasına töhfə veririk"*

Azərbaycan ilə dünyanın bir çox ölkələri arasında imzalanan sənədlər, ölkələr arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açıb. Azərbaycanın iştirakçısı olduğu görüşlər, təşəbbüsləri, beynəlxalq layihələri ölkəmizin nüfuzunun artdığının və etimadının yüksəldiyinin daha bir göstəricisidir. Müasir dövrümüzdə böyük tərəqqi yolu keçən və Zəfər qazanan Azərbaycan dinamik inkişaf edən və bütün dünyada hörmət olunan ölkəyə çevrilib. Azərbaycanda bütün sahələrin inkişafı ilə yanaşı, beynəlxalq münasibətlər, diplomatik əlaqələr uğurla inkişaf edir. Bu gün Azərbaycanın bir çox dünya ölkələri ilə yanaşı, Çinlə də əlaqələri uğurlu inkişaf yolundadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-da bu ölkəyə işgüzar səfəri əlaqələrin yüksək səviyyədə olduğunun göstəricisidir. Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.

Prezident İlham Əliyevi "mənim əziz dostum" - deyərək salamlayan Çin Xalq Respublikasının Sədri Si Cinpin dövlətimizin başçısına onun dəvətini qəbul edərək "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçiriləcək təntənəli tədbirlərdə və hərbi paradda iştirakına görə təşəkkürünü bildirib. Si Cinpin Azərbaycan ilə Çin arasında 30 ildən artıq dövr ərzində uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğunu və hazırda əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırlayıb, bu səfər çərçivəsində aparılmış müzakirələrin əhəmiyyətinə toxunub.

Dünyanın ən böyük dövlətlərindən olan Çinlə Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci ilin aprel ayının 2-də qurulmuşdur. Azərbaycan Respublikası yarandıqdan sonra onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Çin Xalq Respublikası olub. Milli Məclisin qərarı ilə 1993-cü il 3 sentyabrda Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin açılması qərarlaşdırılıb. Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının dünya dövlətləri, xüsusilə Çin Xalq Respublikası kimi qüdrətli ölkə tərəfindən tanınması mühüm əhəmiyyət kəsb edir. Bu əlaqələrin inkişaf və möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin rolu əvəzsizdir. Çin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermiş və bütün sahələrdə dostcasına əməkdaşlığın daha da genişləndirilməsi üçün addımlar atılmışdır. Pekinlə Bakı arasında diplomatik münasibətlər yaradılması ikitərəfli əlaqələri genişləndirmək üçün əlverişli imkan açmışdır. Ötən müddət ərzində dövlətlərimiz arasında əlaqələr qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq prinsipləri əsasında uğurla inkişaf etdirilib. Bu əlaqələr xalqların mənafeyinə uyğun olaraq inkişaf edir. İkitərəfli əlaqələrin sürətlə inkişaf edərək hazırkı səviyyəyə çatmasında yüksək səviyyəli qarşılıqlı səfərlər və imzalanan sənədlər mühüm rol oynayıb. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Çinə rəsmi səfərləri, əldə olunan razılaşmalar, həyata keçirilən birgə layihələr ikitərəfli əlaqələri daha da dərinləşdirib.

Bu gün Çin və Azərbaycan arasında əməkdaşlıq durmadan inkişaf edir. Ölkələr arasında dostluq əlaqələri qədim tarixi köklərə malikdir. Çin və Azərbaycan arasında diplomatik əlaqələrin yaradılması hər iki ölkənin tarixində yeni vacib bir səhifə açıb. Çin Xalq Respublikasının Sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğulayıb. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd etdi, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxunub.

Ardı Səh. 3

# Azərbaycan – dünya birliyi üçün mühüm və etibarlı tərəfdaş!









Əvvəli-Səh-2

### "AZƏRBAYCAN "BİR KƏMƏR, BİR YOL" TƏŞƏBBÜSÜNÜ İLK DƏSTƏKLƏYƏNLƏRDƏN BİRİ OLUB VƏ BU İSTİQAMƏTDƏ CİDDİ PRAKTİKİ LAYİHƏLƏR HƏYATA KEÇİRİR"

"Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır". Bu barədə Prezident İlham Əliyev Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə çıxışı zamanı bildirib. "Biz beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunmasına töhfə veririk, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələri həyata keçiririk", - deyə dövlət başçısı əlavə edib. Prezident İlham Əliyev onu da əlavə edib ki, Azərbaycan ÇXR Sədrinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyənlərdən biri olub və bu istiqamətdə ciddi praktiki layihələr həyata keçirir.

Çin və Azərbaycan arasında əlaqələrin bütün sahələrdə daha da genişlənməsi üçün böyük potensial mövcuddur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünəməxsus inkişaf yolu ilə irəliləyir. İki ölkə arasında nəqliyyat, kənd təsərrüfatı, turizm, energetika, informasiya və kommunikasiya texnologiyaları istiqamətlərində əməkdaşlığın artan dinamikası diqqətdədir. Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq baxımından Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ölkəmiz üçün mühüm önəm daşıyır. Azərbaycan bu layihəni dəstəkləyən ilk ölkələrdən oldu. "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2015-ci ildə Çinə rəsmi səfəri çərçivəsində "İpək yolu iqtisadi kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında əhəmiyyətli rol oynayır və respublikamızdan keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə uzlaşır və Çin tərəfi konteyner daşımaları baxımından bu dəhlizə böyük maraq göstərir. Bu gün Azərbaycan və Çin arasında olduqca yaxşı iqtisadi əməkdaşlıq mövcuddur.

### İKİ ÖLKƏ ARASINDA ƏMƏKDAŞLIĞIN HƏRTƏRƏFLİ İNKİŞAFINA CİDDİ TƏKAN VERƏN SƏNƏD

Çin Xalq Respublikasının Sədri bildirib ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişlənməsini dəstəkləyir. Si Cinpin Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması istiqamətində birbaşa dialoqun əhəmiyyətini qeyd edib. Həmçinin Çin Xalq Respublikasının Sədri ölkəmizin suveren inkişaf modelinin Çin tərəfindən dəstəkləndiyini diqqətə çəkib. Çinin başqa ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə sadiq olduğunu vurğulayıb.

Dövlətimizin başçısı dəvətə görə təşəkkürünü bildirib, Çin Xalq Respublikasının xarici hərbi müdaxilə üzərində qələbəsinin 80 illiyi münasibətilə təbriklərini çatdırıb.

Prezident İlham Əliyev də öz növbəsində Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırlayaraq, səfər zamanı Si Cinpinlə görüşlərini və aparılmış dialoqun iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafına ciddi təkan verdiyini qeyd edib, müfəssəl strateji tərəfdaşlığa dair imzalanmış sənədin əhəmiyyətini vurğulayıb.

Azərbaycan Prezidenti ölkəmizin xarici siyasətində Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsinin prioritet istiqamətlərdən biri olduğunu bildirib.

Dövlətimizin başçısı Azərbaycanın Tayvan, Honkonq və Sincan-Uyğur Muxtar Rayonu məsələlərində Çinin mövqeyini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pisləyən ilk ölkələrdən biri olduğunu qeyd edib.

Prezident İlham Əliyev ölkələrimiz arasındakı ticarət münasibətlərində əsaslı artımın müşahidə olunduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı "Bir kəmər, bir yol" layihəsinə toxunaraq, onun vacib tərkib hissəsi olan və Azərbaycan ərazisindən keçən Orta Dəhliz vasitəsilə daşımaların, xüsusilə Çin yüklərinin daşınmasının artması bu dəhlizin səmərəliliyinin və cəlbediciliyinin nümunəsi kimi qiymətləndirib.

Prezident İlham Əliyev, həmçinin Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh gündəliyi üzrə danışıqların ikitərəfli əsasda aparıldığını deyərək, artıq iki ölkə arasında sülhün bərqərar olduğunu vurğulayıb.

### "ÖLKƏLƏRİMİZ BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ DƏ DAİM BİR-BİRİNİ DƏSTƏKLƏYİR"

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də daim bir-birini dəstəklədiyi məmnunluqla qeyd edilib. Vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsindən sonra son dövrlərdə turizm sahəsində əlaqələrin inkişaf etdiyi vurğulanıb. Söhbət zamanı Azərbaycanla Çin arasında əməkdaşlığın perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb.

"Azərbaycan Çinin beynəlxalq sülh, təhlükəsizlik və inkişafı təşviq etmək üçün irəli sürdüyü Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyib". Bu sözləri Prezident İlham Əliyev Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən iclasda çıxışı zamanı söyləyib. "Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq", – deyə dövlətimizin başçısı əlavə edib.

*Ardı Səh. 4*

# Azərbaycan – dünya birliyi üçün mühüm və etibarlı tərəfdaş!






Əvvəli-Səh-3

## “ƏLDƏ OLUNMUŞ RAZILAŞMALAR BEYNƏLXALQ YÜKDAŞIMALAR ÜÇÜN TRANZİT İMKANLARININ GENİŞLƏNMƏSİNƏ XİDMƏT EDƏCƏK”

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcminin təxminən 90 faiz artdığını da bildirib. Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. Dövlətimizin başçısı bu dəhlizlə yüklərin daşınması vaxtının xeyli azaldığını qeyd edib. Prezident, həmçinin bildirib: “Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə bu yaxınlarda əldə olunmuş razılaşmalar beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək”.

”Yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal–Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək”, - deyən Azərbaycan Prezidenti vurğulayıb ki, Zəngəzur dəhlizi Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.

## “AZƏRBAYCANLA ÇİN ARASINDA SƏMİMİ, DOST MÜNASİBƏTLƏR VƏ HƏRTƏRƏFLİ STRATEJİ TƏRƏFDAŞLIQ MÖVCUDDUR”

Çinin Tiencin şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) illik sammiti keçirilib. Genişmiqyaslı illik sammitdə 21 ölkədən liderlər və 10-dan çox beynəlxalq təşkilat iştirak edir. ”Azərbaycan-Çin əlaqələri son iki ildə keyfiyyətcə yeni mərhələyə yüksəlib”. Bu barədə Prezident İlham Əliyev Çinin Tiencin şəhərində ”ŞƏT plyus” formatında keçirilən görüş zamanı bildirib. Dövlətimizin başçısı qeyd edib: ”Azərbaycanla Çin arasında səmimi, dost münasibətlər və hərtərəfli strateji tərəfdaşlıq mövcuddur. Bu əlaqələrin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir”. Dövlətimizin başçısı bu il iki ölkə arasında strateji tərəfdaşlığın yaradılmasına dair Birgə Bəyanatın imzalanmasını tarixi hadisə adlandırıb və bunun Azərbaycan-Çin münasibətlərində yeni səhifə açdığını vurğulayıb.





Təşkilat 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. ŞƏT-in tamhüquqlu iştirakçıları 10 ölkə: Rusiya, Belarus, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Tacikistan və Özbəkistandır. Hazırda Əfqanıstan və Monqolustan təşkilatda müşahidəçi statusuna, Azərbaycan, Bəhreyn, Misir, Kamboca, Ermənistan, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Türkiyə və Şri-Lanka isə təşkilatın dialoq tərəfdaşı statusuna malikdirlər. ŞƏT-in məqsədi regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi, iqtisadi əməkdaşlığın, enerji tərəfdaşlığının, elmi və mədəni fəaliyyətin inkişafıdır. Təşkilata üzv dövlətlərin başçılarının görüşləri 2002-ci ildən hər il keçirilir. Ümumilikdə ŞƏT-in 23 sammiti keçirilib.

Beynəlxalq və regional təşkilatlarda fəal iştirak edən Azərbaycanın da son illər ŞƏT ilə əlaqələri genişlənir. Azərbaycana dialoq tərəfdaşı statusunun verilməsinə dair qərar təşkilatın 2015-ci ilin iyulunda Ufada keçirilən Zirvə görüşündə qəbul edilib. Ölkəmizlə təşkilat arasında mövcud əməkdaşlıq sahələri 2016-cı ildə tərəflər arasında imzalanmış memorandumda öz əksini tapıb. Ötən müddətdə Azərbaycan təşkilat çərçivəsində keçirilən müxtəlif tədbirlərdə fəal iştirak edib.

## İKİTƏRƏFLİ GÖRÜŞLƏR

Sentyabrın 1-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub. Görüşdə qardaşlıq və strateji müttəfiqliyə əsaslanan ikitərəfli əlaqələrimizin bütün istiqamətlərdə, o cümlədən enerji, nəqliyyat sahələrində daha da genişlənməsindən məmnunluq ifadə olunub. Söhbət zamanı SOCAR ilə Türkiyənin ”Botaş” şirkəti arasında əməkdaşlığa toxunulub və bu xüsusda Azərbaycan qazının Qətərin maliyyə dəstəyi ilə Türkiyə ərazisindən Suriyaya çatdırılmasının önəmi qeyd edilib. Həmçinin Azərbaycanla Türkiyənin digər ölkələrdə birgə enerji layihələrinin icrasına dair məsələlər müzakirə olunub. Bir neçə gün əvvəl Qars-İğdır-Dilucu dəmir yolu xəttinin təməlinin qoyulmasının əhəmiyyəti vurğulanıb, Azərbaycanda, o cümlədən Naxçıvan regionunda həyata keçirilən dəmir yolu layihələri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanla Ermənistan arasında normallaşma prosesi müzakirə olunub və bu xüsusda Türkiyənin regional məsələlərdə sabitləşdirici rolu yüksək qiymətləndirilib.

Türk Dövlətləri Təşkilatının bu il Azərbaycanda keçiriləcək növbəti Zirvə görüşünün əhəmiyyətinə toxunulub.

Dövlət başçıları Azərbaycan-Türkiyə strateji müttəfiqlik əlaqələrinin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Çinin Tiencin şəhərində Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqun ilə də görüşüb. Görüşdə Azərbaycanla Asiya İnfrastruktur İnvestisiya Bankı arasında əlaqələrin mövcud səviyyəsindən məmnunluq ifadə olunub, bankın ölkəmizlə müxtəlif sahələrdə, o cümlədən yaşıl enerji sahəsində uğurlu əməkdaşlığı qeyd edilib. Söhbət zamanı Orta Dəhliz, metro tikintisi, su, yaşıl enerji ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. Sonda strateji əməkdaşlıq üzrə imzalanmış birgə bəyanamə dövlətimizin başçısının və bankın prezidentinin iştirakı ilə mübadilə edilib.

Göründüyü kimi, yüksək səviyyəli qarşılıqlı səfərlər, keçirilən görüşlərlər və imzalanan çoxsaylı sənədlər ölkələr arasında əlaqələri daha da dərinləşdirib.

*Zümrüd BAYRAMOVA*

# Bəşəri amallara sadiqlik!

***“Azərbaycan dövlətlərin ərazi bütövlüyünü dəstəkləyir və müstəqil siyasət yürütmələrinə böyük önəm verir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri xüsusilə vurğulayıb ki, ölkəmizin rəhbəri cənab İlham Əliyev dünyada sülhün, əminamanlığın, qarşılıqlı əməkdaşlığın, sağlam münasibətlərin tərəfdarıdır və fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməmişdir.***



## KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

“Azərbaycan həm də donor ölkə kimi tanınır. Çətin şəraitdə olan ölkələrə humanitar, maliyyə dəstəyi göstərir. Xarici ölkələrdə məktəblər, uşaq bağçaları tikir, mədəni–dini abidələri bərpa edir, köməksizlərə arxa–kömək olur. Bu, əlbəttə ki, bəşəri dəyərlərdən qaynaqlanır. Cənab İlham Əliyev Səudiyyə Ərəbistanının “Əl–Ərəbiyyə” telekanalına müsahibəsində də bu dəyərlərə üstünlük verdiyini geniş ifadə etmiş və gərəkli olduğunu bildirmişdir. Dövlətimizin rəhbəri qeyd etmişdir ki, “Biz 80-dən çox ölkəyə maliyyə dəstəyi, humanitar dəstəyi təmin edirik... Biz separatizmin istənilən təzahürlərinə qarşıyıq – istər Qarabağda, istər Suriyada, istərsə də dünyanın hər hansı bir digər yerində olsun”. Bu, reallıqdır. Çünki Azərbaycan uzun illər separatizmdən, işğaldan əziyyət çəkən bir ölkə kimi müharibənin ağrılarını yaşamışdır, şəhərləri, kəndləri, bir çox yaşayış məntəqələri viran edilmiş, meşələri qırılmış, tarixi–dini abidələri yer üzərindən silinmişdir.

İşğal və müharibə dövründə ölkəmizə beynəlxalq aləm tərəfindən lazimi dəstək verilməsə də rəhbər – xalq – ordu birliyi düşmən üzərində qələbəni təmin etmiş, erməni faşistlərinin ayağı torpaqlarımızdan kəsilmişdir. Həmin çətin günlərdə Azərbaycana mənəvi, humanitar dəstək verən ölkələri Azərbaycan heç vaxt yaddan çıxarmaz və bu gün həmin dövlətlərlə qardaşlıq, dostluq münasibətlərimiz möhkəmlənməkdə, genişlənməkdədir. Çətin gündə sınaqdan keçən hər bir ölkə Azərbaycan üçün əzizdir. Dövlətimiz də çətin anlarda bəzi ölkələrə kömək əlini uzatmaqla, maddi, humanitar yardım göstərməklə həm dostlarının sayını artırır, həm də bəşəri amallara sadiq olduğunu nümayiş etdirir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Leyla Əliyeva “Tut Əlimdən” Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzi ilə tanış olub







***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tərəfdaşlığı ilə yeni yaradılan “Tut Əlimdən” Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzi fəaliyyətə başlayır. S İA xəbər verir ki, Leyla Əliyeva mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub, burada uşaqlar üçün qurulmuş sosial mühit və xidmət modelləri ilə maraqlanıb.***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova mərkəzin fəaliyyət istiqamətləri barədə məlumat verərək bildirib ki, “Tut Əlimdən” Sosial Reabilitasiya Mərkəzi çətin həyat şəraitində olan və ailə himayəsindən məhrum uşaqlar üçün təhlükəsiz, sağlam, qayğı ilə əhatə olunmuş bir mühit təmin etmək məqsədilə yaradılıb.

Mərkəzdə uşaqların ilkin psixososial vəziyyətinin qiymətləndirilməsi, təcili müdaxilə, müvəqqəti yerləşdirmə, tibbi yardım və sosial reabilitasiya xidmətləri həyata keçiriləcək. Eyni zamanda, onların cəmiyyətə inteqrasiyası və gələcək həyatlarının təminatı üçün fərdi inkişaf planları hazırlanacaq.

Həmçinin qeyd edilib ki, uşaqların təhlükəsizliyi və rahatlığı üçün müasir standartlara uyğun, geniş və işıqlı otaqlar, istirahət və müxtəlif məşğələ guşələri yaradılıb. Geniş həyətyanı sahədə müxtəlif oyun meydançaları və yaşıllıq zonaları salınıb. Bütün görülmüş işlərlə yaxından tanış olan, eyni zamanda, öz tövsiyə və məsləhətlərini də verən Leyla Əliyeva Mərkəzin ailə əsaslı alternativ qayğı prinsiplərinə uyğun fəaliyyət göstərməsi üçün tələb olunan yüksəkixtisaslı və peşəkar gənc kadrlardan formalaşmış əmək kollektivi ilə də görüşüb, onlara fəaliyyətlərində uğurlar arzulayıb.



# Bəhruz Quliyev “Trend” BİA-nı təbrik etdi



**“SƏS” Media Qrupun rəhbəri, əməkdar jurnalist Bəhruz Quliyev ”Trend” BİA-nı 30 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir: ”Regionun aparıcı, nüfuzlu agentliyi olan “Trend” BİA 30 yaşını qeyd edir. Peşəkar komandaya malik media qurumu olaraq dünyada tanınır və informasiyalarının dəqiqliyi və əhatəliliyinə görə sayılır və seçilir. “Trend”i lazımlı edən həm də bir neçə dildə fəaliyyət göstərməsidir. Asiya ilə yanaşı Avropa xəbər istehsalçıları arasında xüsusi çəkisi olan media resursu sağlam rəqabəti ilə tanınır.**

“Trend”in bütün bölmələri maraqlıdır, təhlil və araşdırmaları, xəbərləri oxucuların marağına səbəb olur, agentliyi onlarla dostlaşdırır, doğmalaşdırır. Mənbələrdən əldə etdiyimiz məlumatlara görə “Trend” 30 illik bir tarix ərzində müxtəlif mükafatlara layiq görülüb: Asiya və Sakit okean ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA) üzv qəbul edilib (2010-cu ildə), Azərbaycanda ”KİV sahəsində ən yaxşı şirkət” seçilib (2006-2007-ci illərdə), “İlin eksklüziv informasiya agentliyi” nominasiyasında ”Brand Award Azerbaijan-2008” milli mükafatına layiq görülüb, Avrasiya Televiziya və Radio Akademiyası “Trend”i ”Avrasiyada daha dinamik inkişaf edən resurs” hesab edib (2008-ci ildə). Peşəkar komandaya sahib “Trend” BİA ailəsini 30 illik yubiley münasibətilə ürəkdən təbrik edir, çətin və məsuliyyətli fəaliyyətlərində onlara uğurlar arzulayırıq”.




# Yeni dərs ilinin başlanğıcı: uşaqların adaptasiya problemləri və valideynlərin rolu

***Sentyabr ayı təkcə təbiətin payıza keçidi ilə deyil, həm də yeni dərs ilinin başlanması ilə seçilir. Bu dövr həm uşaqlar, həm valideynlər, həm də müəllimlər üçün mühüm mərhələdir. Xüsusilə məktəbə ilk dəfə qədəm qoyan və ya uzun tətil dövründən sonra dərslərə qayıdan uşaqların adaptasiyası müəyyən çətinliklər yarada bilər. SİA mövzu ilə bağlı araş-***



Yeni dərs ili başlayanda uşaqlar müxtəlif istiqamətlərdə çətinliklərlə üzləşə bilirlər. Bu çətinlikləri əsasən psixoloji, sosial və akademik olaraq üç qrupa bölmək olar.

### Psixoloji problemlər

Həyəcan və qorxu – Məktəbə yeni başlayan və ya sinif dəyişən uşaqlar özlərini yad mühitdə hiss edirlər. Bu isə gərginlik, ağlama, məktəbə getmək istəməmək kimi reaksiyalara səbəb ola bilər.

Ayrılma narahatlığı – Xüsusilə ibtidai sinif şagirdlərində valideyndən uzaq qalmaq çətinlik törədir. Bu zaman uşaq məktəbdə özünü tək, güvənsiz və narahat hiss edə bilər.

Özünəinamın zəifliyi – Yeni sinifdə və ya yeni fənlərlə qarşılaşanda uşaq “bacarmaram”, “məğlub olaram” kimi düşüncələrə qapıla bilər.

### Sosial problemlər

Yeni dostluqlar qurmaq – Bəzi uşaqlar ünsiyyətcil olduqları üçün tez uyğunlaşırlar, digərləri isə dostluq münasibətləri qurmaqda çətinlik çəkir.

Qrupda yerini tapmaq – Sinif kollektivində hər bir uşağın öz mövqeyi formalaşır. Uşaq ya lider, ya müşahidəçi, ya da passiv mövqedə ola bilər. Uyğun mövqe tapa bilməmək təcrid olunma hissi yarada bilər.

Müəllimlə münasibətlər – Uşağın müəllimlə ünsiyyətində soyuqluq və ya qorxu hissi də adaptasiya prosesini ləngidə bilər.

### Akademik problemlər

Öyrənmə tempinə qayıtmaq – Yay tətilindən sonra uşaqlar dərslərə konsentrasiya olmaqda çətinlik çəkirlər. Dərslərə maraq azala bilər.

Fənlərin çətinliyi – Xüsusilə yuxarı siniflərdə yeni fənlər uşaqlar üçün əlavə yüklənmə yaradır.

Vaxt idarəetməsi – Ev tapşırıqlarını vaxtında yerinə yetirmək, dərsləri planlı oxumaq ilk həftələrdə çox çətin olur.

### Davranış problemləri

Münaqişələr – Uşaqlar yeni qaydalara öyrəşmədikdə aqressiv reaksiya verə bilirlər.

İnadkarlıq – Məktəbə getmək istəməmək, dərs zamanı diqqəti yayındırmaq və ya müəllimə itaət etməmək də adaptasiya çətinliklərindən qaynaqlanır.

Həddindən artıq sakitlik – Bəzən uşaq tam əks reaksiya göstərərək passiv, susqun, dərslərə qatılmaq istəməyən vəziyyətə düşür.

Adaptasiya dövrü uşağın xarakterindən, ailə mühitindən, müəllimlərin yanaşmasından və sinif kollektivindən asılı olaraq fərqli ola bilər. Əsas məsələ bu problemlərin təbii və müvəqqəti olduğunu başa düşməkdir. Düzgün dəstək göstərildikdə uşaqlar qısa müddətdə məktəb mühitinə uyğunlaşa bilirlər.

### Yeni dərs ilində valideynlərin rolu

Uşaqların məktəb həyatına adaptasiyası yalnız müəllim və məktəb mühiti ilə məhdudlaşmır. Bu prosesdə ən böyük məsuliyyət valideynlərin üzərinə düşür. Onların yanaşması uşağın həm psixoloji, həm də akademik uğuruna birbaşa təsir göstərir.

### Emosional dəstək

Qorxuları dinləmək: Uşaq məktəbə getməkdən qorxursa, onu danlamaq yox, səbəbini öyrənmək lazımdır.

Müsbət yanaşma: Valideyn məktəb haqqında həmişə müsbət danışmalı, “sən bacaracaqsan”, “sən çox ağıllısan” kimi ifadələrlə uşağın özünəinamını gücləndirməlidir.

Hissləri qəbul etmək: Uşağın ağlaması, narahatlığı normal sayılmalı və təbii bir mərhələ kimi qarşılanmalıdır.

### Rejimin qurulması

Yuxu rejimi: Uşaqlar dərs günlərində vaxtında yatmalı və oyanmalıdır. Yuxu çatışmazlığı diqqət dağınıqlığına səbəb olur.

Dərs və istirahət balansı: Uşağın yalnız dərslərə fokuslanması deyil, həm də oyun, idman və istirahət üçün vaxtı olmalıdır.

Yemək rejimi: Sağlam qidalanma uşağın həm zehni, həm də fiziki enerjisini artırır.

### Məktəblə əməkdaşlıq

Müəllimlə ünsiyyət: Valideynlər müəllimlərlə sıx əlaqədə olaraq uşağın məktəbdəki davranışı və nailiyyətləri barədə məlumat almalıdır.

Məktəb tədbirlərində iştirak: Valideynin məktəb tədbirlərinə qatılması uşağın motivasiyasını artırır.

Müşahidə və dəstək: Uşağın dərs hazırlığında çətinlikləri varsa, müəllimlə birlikdə həll yolları tapmaq vacibdir.

### Akademik dəstək

Marağı artırmaq: Valideyn dərsləri maraqlı təqdim etməli, suallar verməli, öyrənilənləri gündəlik həyatla əlaqələndirməlidir.

Kömək etmək, amma yerinə yetirməmək: Ev tapşırıqlarında valideyn yalnız istiqamət göstərməlidir, uşağın əvəzinə işləri görmək olmaz.

Oxuma vərdişləri: Valideyn uşağa kitab oxumaq nümunəsi göstərməli və onun mütaliə marağını dəstəkləməlidir.

### Sosial bacarıqların dəstəklənməsi

Ünsiyyət bacarıqları: Uşağın dostları ilə münasibətlərini müzakirə etmək, konfliktlərin həllində onu yönləndirmək önəmlidir.

Məsuliyyət hissi: Valideyn uşağa öz çantasını toplamaq, dərs vəsaitlərinə sahib çıxmaq kimi məsuliyyətlər verməlidir.

Müstəqillik: Valideyn hər detalı idarə etməməli, uşağa öz qərarlarını vermək imkanı tanımalıdır.

Valideynlərin rolu sadəcə məktəbə uşaq aparmaqla bitmir. Onların sevgi dolu dəstəyi, diqqəti və anlayışı uşağın adaptasiya dövrünü asanlaşdırır. Əslində məktəb həyatına uyğunlaşmada valideyn–müəllim–uşaq üçbucağı ən möhkəm dayağı təşkil edir.

Bu mərhələdə valideynlərin rolu əvəzsizdir. Onların göstərdiyi emosional dəstək, gündəlik rejimin düzgün qurulması, məktəblə sıx əməkdaşlıq, akademik və sosial bacarıqlara yönəlmiş yanaşma uşaqların adaptasiya prosesini xeyli asanlaşdırır. Uşağın məktəb həyatına maraqla qoşulması, özünəinamının güclənməsi və təhsildən həzz alması məhz valideynlərin düzgün münasibətindən asılıdır.

Əslində məktəb həyatına uyğunlaşma sadəcə bir şagirdin problemi deyil – bu, uşaq–valideyn–müəllim üçlüyünün ortaq məsuliyyətidir. Uşaqların məktəbə uğurla adaptasiyası üçün valideynlərin sevgi, anlayış və dəstəyi, müəllimlərin peşəkarlığı və məktəb mühitinin əlverişliliyi bir-birini tamamlamalıdır.

Nəticə etibarilə, doğru yanaşma ilə adaptasiya dövrü qısa zamanda uğura çevrilir: uşaqlar məktəbi yalnız öyrənmə yeri deyil, həm də inkişaf, dostluq və yaradıcılıq məkanı kimi qəbul etməyə başlayırlar. Bu isə onların gələcəkdə həm təhsil, həm də sosial həyatda daha möhkəm və balanslı şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Azərbaycan "ŞƏT plyus"da





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə bu ölkəyə işgüzar səfər edib. Çinin Tiencin şəhərində Azərbaycan və Çin liderləri İlham Əliyev və Si Cinpin arasında görüş keçirilib. İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Si Cinpin dövlətimizin başçısına onun dəvətini qəbul edərək "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçiriləcək təntənəli tədbirlərdə və hərbi paradda iştirakına görə təşəkkürünü bildirib.***



Si Cinpin Azərbaycan ilə Çin arasında 30 ildən artıq dövr ərzində uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğunu və hazırda əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırlayıb, bu səfər çərçivəsində aparılmış müzakirələrin əhəmiyyətinə toxunub. Liderlər "Bir kəmər, bir yol" layihəsi, Azərbaycan-Çin əməkdaşlığını müzakirə edib, Trans-Xəzər marşrutunun önəminə toxunublar.

Prezident İlham Əliyev ölkələrimiz arasındakı ticarət münasibətlərində əsaslı artımın müşahidə olunduğunu deyib, "Bir kəmər, bir yol" layihəsinə toxunub və Azərbaycan ərazisindən keçən Orta Dəhliz vasitəsilə daşımaların, xüsusilə Çin yüklərinin daşınmasının artması bu dəhlizin səmərəliliyinin və cəlbediciliyinin nümunəsi kimi qiymətləndirib.

Səfər çərçivəsində Prezident İlham Əliyev "China Energy Engineering Corporation Limited" şirkətinin rəhbəri vəzifəsini icra edən Ni Cen, "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin təsisçisi və sədri, "CETC" korporasiyasının baş direktoru, "CCCC" şirkətinin sədri və digər aparıcı şirkətlərin rəhbərləri ilə görüşüb, dünyanın mühüm nəqliyyat qovşağına çevrilmiş Azərbaycanın nəqliyyat və tranzit potensialının daha da artırılması üçün həyata keçirilən genişmiqyaslı layihələr barədə fikir mübadiləsi aparıb.

Tiencində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub. Görüşdə qardaşlıq və strateji müttəfiqliyə əsaslanan ikitərəfli əlaqələrimizin bütün istiqamətlərdə, o cümlədən enerji, nəqliyyat sahələrində daha da genişlənməsindən məmnunluq ifadə olunub. Prezident həmçinin Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqun, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüş keçirib.

## "ŞƏT plyus" tədbirində

Tədbirdə 20-dən çox xarici ölkənin rəhbərləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər ki, bu da qurumun müasir geosiyasətdə artan rolunu vurğulayır. Çin bu möhtəşəm tədbiri özünün sənaye mərkəzi Tianjində keçirir, dialoqa və Avrasiya əməkdaşlığını gücləndirməyə hazır olduğunu nümayiş etdirir. Çin sədri Si Cinpin iki günlük sammitdə 20-yə yaxın dünya lideri ilə görüşüb və bu tədbiri regional inteqrasiya üçün dönüş nöqtəsinə çevirib.

Çin prezidenti Si Cinpinin dəvəti ilə Çinə səfər edənlər arasında Rusiya, Hindistan, İran, Pakistan, eləcə də Mərkəzi Asiya ölkələri Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın dövlət başçıları iştirak edir. Dəvət olunmuş dövlətlərin: Türkiyə, Azərbaycan, Ermənistan, Myanma, Nepal, İndoneziya, Malayziya, Maldiv adaları və digər dövlətlərin iştirakına xüsusi diqqət yetirilir ki, bu da dünyanın müxtəlif regionlarından Şanxay Əməkdaşlıq Təşkilatına artan marağı nümayiş etdirir. Beynəlxalq nümayəndələr arasında BMT-nin baş katibi Antonio Quterreşin, eləcə də müxtəlif regional təşkilatların, o cümlədən ATƏT-in rəhbərlərinin iştirakı gözlənilir ki, bu da müzakirə olunan məsələlərin qlobal xarakter daşıdığını vurğulayır.

## Proqram və ilk günün əsas hadisələri

Avqustun 31-də ŞƏT-in sammiti rəsmi qəbul mərasimi və konsert proqramı ilə başlayıb və bu, mühüm danışıqların başlanması üçün müvafiq ab-hava yaradıb. Mədəni proqram Çin adət-ənənələrinin zənginliyini nümayiş etdirmək və ev sahibi ölkənin qonaqpərvərliyini vurğulamaq məqsədi daşıyırdı. İlk günün təşkilati tədbirlərində əsas diqqət danışıqlar üçün rahat şəraitin yaradılması və nümayəndə heyətləri arasında qeyri-rəsmi əlaqələrin qurulmasına yönəldilib. Rəsmi proqram sentyabrın 1-də, iştirakçı ölkələrin liderlərinin əsas danışıqları aparacağı vaxt başlayıb.

## İkitərəfli görüşlər və məsləhətləşmələr

Sammitin ilk günü dövlət başçılarının ikitərəfli görüşləri ilə keçdi. Narendra Modi və Si Cinpin arasında keçirilən görüşdə Hindistan və Çin arasında ticarət, investisiya və strateji tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi məsələlərinin müzakirə edildiyi görüşə xüsusi diqqət yetirilib. Modi danışıqlar zamanı qeyd edib ki, iki ölkə arasında sərhəddə mövcud atmosfer "sülh və sabitlik mühiti yaradıb" və bu, iki Asiya nəhəngi arasında münasibətlərin daha da yaxşılaşdırılması üçün əsas ola bilər. Rusiya prezidenti, Hindistanın baş naziri və Çin sədri enerji tərəfdaşlığı məsələlərini müzakirə ediblər ki, bu da danışıqların praktiki istiqamətini göstərir.

## Çoxqütblülüyün nümayişi

Sammit Qlobal Cənub ölkələrinin həmrəyliyini və çoxqütblü dünya nizamı yaratmaq istəyini nümayiş etdirmək əlaməti altında keçirilib. Prezident Putin təşkilat iştirakçılarının ümumi istəklərini əks etdirən çoxqütblü dünya konsepsiyasının təşviqində ŞƏT-in rolunu xüsusilə vurğulayıb. Tədbirin əsas tonu əməkdaşlığı gücləndirmək, qlobal təhdidlərə qarşı durmaq və regional inteqrasiyanı intensivləşdirmək istəyi ilə müəyyən edilir. Bu, mövcud beynəlxalq gərginlik və qlobal təhlükəsizlik arxitekturasına yenidən baxılması cəhdləri kontekstində xüsusilə aktualdır.

## Əməkdaşlığın iqtisadi ölçüsü

Tianjin ŞƏT sammitinin üç əsas missiyası var, o cümlədən:

iqtisadi əməkdaşlığın dərinləşdirilməsi,

regional təhlükəsizliyin təmin edilməsi

mədəni və humanitar əlaqələrin inkişaf etdirilməsi

Onun iştirakçıları alternativ iqtisadi mexanizmlərin yaradılmasını müasir çağırışlara cavab kimi qiymətləndirirlər. Xüsusilə inkişaf etməkdə olan iqtisadiyyatların enerji resursları və texnologiyalarına artan ehtiyacları fonunda enerji tərəfdaşlığı əməkdaşlığın prioritet sahələrindən biri olaraq qalır.

## Sanksiya edilmiş tranzit

Dünya mediası hərbi hesabatlara və diplomatik ultimatumlara diqqət yetirdiyi halda, digəri qlobal münaqişənin - Avrasiyanın iqtisadi transformasiyasının kölgəsində cərəyan edir. Rusiyanın Ukraynada apardığı "xüsusi hərbi əməliyyatı" və bunun ardınca Qərbin sanksiyalarının tıxanması təkcə geosiyasi şok deyil, Mərkəzi Asiya iqtisadiyyatları üçün dönüş nöqtəsinə çevrilib. Görünən odur ki, region ölkələri münaqişədə birbaşa iştirak etmirlər. Bununla belə, onlar özlərini yeni ticarət və logistika reallığının önündə tapdılar: sanksiyalara əməl olunmasını tələb edən Qərblə yeni imkan pəncərələri açan Şərq arasında. Bir tərəfdən neytrallıq və ikinci dərəcəli sanksiyalara düşmək qorxusu ilə bağlı rəsmi bəyanatlar var. Digər tərəfdən, Qərb və Çin mallarının təkrar ixracı, infrastruktur meqalayihələrinin canlanması müşahidə olunur.

Rusiyanın Ukraynada xüsusi hərbi əməliyyatına başlamasından və ardınca Qərbin anti-Rusiya sanksiyalarına məruz qalmasından sonra bir çox ekspertlər regionda daha dərin iqtisadi böhranın olacağını proqnozlaşdırırlar. Bununla belə, Moskvanı təcrid etməyə yönəlmiş sanksiyalar Mərkəzi Asiya iqtisadiyyatına gözlənilməz təkan verib. İki atəşin – Aİ daxilində müttəfiqlik öhdəlikləri və Qərbin artan təzyiqi arasında qalan region ölkələri manevr etməyə başlayıb. Bir tərəfdən neytrallığa formal dəstək, digər tərəfdən Rusiya ilə ticarətdə görünməmiş artım.



Faktiki olaraq Mərkəzi Asiya yeni sanksiyalar arxitekturasının benefisiarına çevrilərək təkrar ixrac mərkəzinə çevrilib.

Qərb şirkətlərinin Rusiyadan getməsi və əvvəlki təchizat zəncirlərinin dağılması ilə yeni logistik marşrutlara, bazarlara və vasitəçilərə ehtiyac yaranır. Burada Mərkəzi Asiya və Azərbaycan xüsusi mövqe tutub. Qazaxıstan, Qırğızıstan və Özbəkistan vasitəsilə paralel idxalın həcmi dəfələrlə artıb. Ekspertlərin hesablamalarına görə, 2023-2024-cü illərdə Rusiyaya bütün idxalın 20-30%-ə qədəri Mərkəzi Asiya ölkələrindən, o cümlədən maşın, ehtiyat hissələri, elektronika və avadanlıqlar vasitəsilə həyata keçirilib. Amma bununla yanaşı, respublikaların hökumətləri getdikcə ikinci dərəcəli sanksiyalar təhlükəsi ilə üzləşirlər. 2024-cü ildə ABŞ Xəzinədarlığı və Avropa Komissiyası Qazaxıstan, Qırğızıstan və Ermənistandakı biznes və banklara məhdudiyyətlərdən yayınmada Rusiyaya yardımın yolverilməzliyi ilə bağlı xəbərdarlıqlar göndərib.

## Mərkəzi Asiya: fayda və riskin kəsişməsində

Amma daha maraqlısı Orta Asiyada baş verənlərdir. Nə etiraz səsi, nə "dayanmaq" sözü, nə də "qazsız qışdan sağ çıxmaq" çağırışı eşidilmir. Lakin bölgə birdən-birə iqtisadi sürət qazanmağa başlayıb. Qərbin Rusiyaya qarşı sanksiyaları, görünür, region ölkələrinə, xüsusən də Qırğızıstana zərbə vurmalı idi. Ölkələrin iqtisadiyyatları bir-biri ilə sıx bağlıdır, miqrantlar, ticarət, yanacaq - bunların hamısı zərər çəkə bilərdi. İqtisadçı, Qırğızıstanın keçmiş iqtisadiyyat naziri Jenişbek Bayqutiev bu yaxınlarda keçirilən forumların birində sadə, lakin dəqiq bir şey söyləyib: "Ukrayna-Rusiya müharibəsi başlayandan sonra bütün diqqətin Şərqə yönəlməsi Orta Asiyaya təzə nəfəs verib. Rəqəmlər həqiqətən təsiredicidir. Çinin Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 2000-ci illərin əvvəlləri ilə müqayisədə 200 dəfə artıb. 2024-cü il üçün — 94,8 milyard dollar". Eyni zamanda ekspert qeyd edib ki, rusiyalı sahibkarlar Qırğızıstana getdikcə daha çox gəlirlər. Bəziləri qısa müddətə qalacaq, bəziləri daha uzağa gedəcək, amma çoxları qalacaq. Bu, yerli biznes üçün böyük şansdır. "Biz sanksiyalar altında deyilik, biz Rusiya ilə nəqliyyat əlaqələri qurmuşuq və bizim vasitəmizlə yeni təchizat zəncirləri yaradıla bilər. Sanksiya təzyiqləri fonunda Qırğızıstan, əksinə, xüsusilə logistika və ixrac sahəsində imkan pəncərəsinə malikdir". Bununla bağlı Bayqutiyev geosiyasi faktora işarə edir: Çin, onun fikrincə, Moskvadan əl çəkməyəcək. Bu isə o deməkdir ki, Qırğızıstan iki nəhəng arasında nəqliyyat körpüsünə çevrilə bilər.

Qırğızıstan kiçik ölkə statusuna baxmayaraq, mühüm logistika mərkəzinə çevrilir. Onilliklər boyu müzakirə edilən nəhəng Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsi nəhayət ki, irəli gedir. Marşrutun 486 km-dən 312-si Qırğızıstan ərazisindən keçəcək. İnvestisiyalar: 4,6 milyard dollar. Layihə uzun, mürəkkəb və mübahisəsiz deyil. Amma irəli gedir. Həm də ona görə yox ki, yaxşı investorlar gəlib. Ancaq dünya dəyişməyə məcbur olduğu üçün. Qərbin logistika üzərində nəzarəti zəifləyib. Asiya marşrutları diktə etməyə başlayır.

## Dünyanın yeni xəritəsi: dəhlizlər

Köhnə dünya "Atlantik nüvə" ətrafında qurulmuşdu. Pul, texnologiya, gəmilər, birjalar, qaydalar var idi. Qalan hər şey periferiya idi. Amma indi bu, artıq aksioma deyil. Süveyş və Rotterdam vasitəsilə adi konteynerlər əvəzinə yüklər Xəzər dənizi, Bişkek, Səmərqənd ilə gedir. Alternativ qloballaşma formalaşır. Çin sadəcə "Bir kəmər, bir yol" qurmur. O, elə bir sistem qurur ki, bir sanksiya rıçaqı ilə qitədə ticarəti çökdürmək mümkün deyil.

Bu o demək deyil ki, hər şey asanlaşıb. Problemlər çoxdur: darboğazlar, investisiya çatışmazlığı, bürokratiya. Ancaq əsas şey vektordur. Sanksiyalar yeni regional düşüncəyə yol açıb. Ölkələrin öyrənməli olduğu başqa bir dərs də strateji ehtiyatların vacibliyidir. Ölkələrin öz ehtiyatlarına və yerli istehsalçılara diqqət yetirməyə ehtiyacı var.

## Qazaxıstan: Qərblə Şərq arasında

Qazaxıstan rəsmi olaraq müdaxilə etməmək siyasətinə sadiqdir, eyni zamanda Rusiya, Çin və Türkiyə ilə iqtisadi əməkdaşlığı gücləndirir. 2024-cü ildə respublika ərazisindən 1 078,8 milyon ton yük (+10%) daşınıb.

Çinə gedən marşrutlar xüsusi artım göstərdi:

Çin ilə dəmir yolu yük axını — 32 milyon ton (+13%)

Çinlə ticarət dövriyyəsi — 43,8 milyard dollar

Sanksiya rejiminə əməl olunması ilə bağlı ictimai bəyanatlara baxmayaraq, bir çox Qazaxıstan şirkətləri Rusiya Federasiyasına paralel idxalda iştirak edir. Lakin Qərbin təzyiqi ilə Qazaxıstan Respublikasının Milli Bankı rublla əməliyyatları məhdudlaşdırmağa başlayıb və banklar üzərində nəzarəti gücləndirib.

## Qırğızıstan: təkrar ixrac iqtisadiyyatı

Qırğızıstan Rusiya Federasiyasına reeksport üçün əsas mərkəzlərdən birinə çevrilib. 2024-cü ildə Rusiya ilə ticarət dövriyyəsi tarixi maksimuma çatdı və Avropa və Asiyadan idxal 120% artdı ki, bu da daxili istehlaka açıq şəkildə uyğun gəlmir. Qırğızıstan Respublikası Aİ ilə əməkdaşlıqdan qazanır və bu da emal həcmini artırmağa imkan verir. Qırğızıstanla ticarət aparan demək olar ki, bütün ölkələr hazır məhsullar təklif edirlər ki, bundan əlavə dəyər alınmır. Bu ölkə ilə xammal ticarəti edənlər yalnız Aİ ölkələridir. Bununla belə, 2024-cü ilin iyununda Qırğızıstan ixrac nəzarətini pozmaqda şübhəli bilinərək ABŞ-ın müşahidə siyahısına salınıb. İş adamları bloklanmış hesablardan və Rusiya Federasiyası ilə işləmək risklərinin artmasından şikayətlənirlər.

## Özbəkistan: fayda elementləri ilə neytrallıq

Özbəkistan formal olaraq istənilən birliklərdən uzaqlaşır və "bütün istiqamətlər" siyasətini davam etdirir. Lakin Rusiya və Çinlə ticarət həcmi artmaqda davam edir. Respublika Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsində iştirak edir və öz ərazisindən alternativ logistika marşrutlarının bir hissəsi kimi fəal şəkildə istifadə edir.

## Azərbaycan və Mərkəzi Asiyanın tranzit potensialı

Avropa Rusiyaya qarşı sanksiya tətbiq edərək qapını döyəndə dərhal yeni başağrısı yarandı: indi Çinlə necə ticarət etmək olar? Cavab tez bir zamanda tapıldı - "Orta Dəhliz", ya da belə adlanır - Transxəzər marşrutu. Çin malları olan konteynerlər Qazaxıstan vasitəsilə göndərilir, Xəzər dənizindən keçir, Azərbaycan və Gürcüstandan keçir, oradan isə birbaşa Avropaya gedir. Reallıqda marşrut belədir: Qatar Çindən çıxır, Aktau limanından bərə ilə Bakıya aparılır, oradan Gürcüstan və Türkiyə vasitəsilə Avropaya. Rusiya marşrutu Transxəzərdən təhlükəlidir, müharibə aparan ölkədə yüklər hər an hədəfə çevrilə bilər.









Rusiyanı təcrid etməyə yönəlmiş sanksiyalar bütün postsovet Şərqini kölgə zəncirlərinə çəkib. Mərkəzi Asiya üçün bu, iqtisadi fürsətə və eyni zamanda siyasi çağırışa çevrilib. Bu gün Mərkəzi Asiya ölkələri canlanır və bu proses əsasən Qərbin Rusiyaya sanksiyaları ilə başlayıb. Bu, istər-istəməz həmin ölkələrə geoiqtisadi xəritəni yenidən canlandırmaq şansı verib. Mərkəzi Asiya "bufer zona"dan Cənubla Şimal, Şərqlə Qərb arasında geoiqtisadi körpüyə çevrilir. Dünya dəyişir - əgər 20-ci əsrdə logistikanı London və Vaşinqton diktə edirdisə, XXI əsrdə marşrutlar Bakı, Alaşankou, Daşkənd, Bişkek və Atıraudan keçir. Yeni Avrasiya reallığına kimin hakim olacağı isə Azərbaycanın və Mərkəzi Asiya dövlətlərinin yeni şərtlərə nə qədər tez uyğunlaşmasından asılıdır.

**V.VƏLİYEV**

# Planetimiz üzərində nüvə kölgəsi: saat mexanizmi artıq işə düşüb?







***"Politico" qəzeti ABŞ kəşfiyyatının məlumatlarına və ekspert rəylərinə istinadən yazır ki, qarşıdakı 5 ildə dünyada 5 böyük münaqişə yarana bilər. Ən böyük gərginlik ehtimalı müqayisə oluna bilən nüvə arsenalına malik olan Hindistan və Pakistan arasındakı münasibətlərdə qalır. Pakistanın hərbi doktrinasında təsbit olunmuş nüvə silahından istifadə üçün aşağı hədd xüsusi narahatlıq doğurur.***

"Politico" Asiyada güc balansını dəyişdirə biləcək digər potensial münaqişə mənbəyi kimi materik Çin və Tayvan arasındakı qarşıdurmanı adlandırır. Nəşr qeyd edir ki, ABŞ ənənəvi olaraq Tayvanı dəstəklədiyini bəyan edib, lakin Donald Trampın bu xəttə nə dərəcədə möhkəm sadiq qalacağı bəlli deyil.

Digər risklər arasında Rusiyanın Baltikyanı ölkələrə mümkün müdaxiləsi qeyd olunur ki, bu da NATO üçün sınaq olacaq. Hindistan-Çin sərhədində də yüksək gərginlik var, burada hələ də böhranın qarşısının alınması üçün effektiv mexanizmlər yoxdur.

Nəhayət, ekspertləri xüsusilə Koreya yarımadasındakı vəziyyət narahat edir. Nüvə silahına malik olan Kim Çen In rejimi gözlənilməz olaraq qalır və ölkə daxilində hakimiyyəti gücləndirmək üçün istənilən cəhd münaqişənin genişlənməsinə səbəb ola bilər. Bütün bu münaqişələrin qızışması və nüvə təhlükəsi ehtimalı nə qədərdir? Bu qarşıdrumalar təxminən eyni vaxtda başlasa, bu, III Dünya Müharibəsinə səbəb ola bilərmi? Xüsusən də nüvə müharibəsinə? Bu o deməkdirmi ki, bəşəriyyət məhv olmaq ərəfəsindədir?

## QORXUNC PROQNOZ

Tanınmış analitiklər bu məsələ ilə bağlı fikirlərini Caliber.Az-la bölüşüblər. Ekspert rəylərini oxucularımıza təqdim edirik.

Şərqi Avropa Təhlükəsizlik İnstitutunun (Kiyev) rəhbəri Anatoli Pinçuk hesab edir ki, qeyd olunan 5 münaqişənin eyni vaxtda baş verməsi ehtimalı aşağıdır (məsələn, 2025-2027-ci illərdə).

"CFR və Atlantik Şurasının ekspertlərinin fikrincə, bu, 5%-dən azdır. Üstəlik, bu münaqişələrin müxtəlif səbəbləri və qarşıdurma xətləri var. Pakistan və Hindistan arasındakı qarşıdurma ən böyük riskləri daşıyır. Amma burada da məncə, sağlam düşüncə qalib gələcək.

Çin – Tayvan və Rusiya – Baltikyanı ölkələr – hər şey birbaşa Ukraynadakı vəziyyətin inkişafından asılıdır. Əgər Rusiyanın Ukraynaya qarşı müharibədə real məsuliyyəti artarsa və onun müharibədən toplam itkiləri artarsa, bu münaqişələrin baş vermə ehtimalı sıfıra enəcək. Baltikyanı vəziyyətdə bu, göz qabağındadır. Çin isə qəfil hərəkətləri sevmir və həmişə nəticələrini nəzərə alır. Əgər Rusiyanın böyük mənfi nəticələri olarsa, bu, Çin üçün ciddi maneə olacaq.

Yeri gəlmişkən, bu, Kreml üçün son dərəcə əlverişsiz olan Rusiya-Ukrayna müharibəsinə son qoymaq üçün danışıqlar prosesinə hüquqi arqumentlərin daxil edilməsi üçün başqa bir motivdir. Müvafiq olaraq, tammiqyaslı Üçüncü Dünya Müharibəsinin, xüsusən də nüvə müharibəsinin baş vermə ehtimalı minimaldır. Həm də hibrid dünya müharibəsi uzun müddətdir davam edir",- Pinchuk hesab edir.

Müstəqil analitik Rəşad Rzaquliyevin öz növbəsində qeyd etdiyi kimi, bu gün Politico-nun yazdıqları geosiyasi və sivilizasiyalararası planetar kimlik böhranını yaşayan dünya üçün verilmişdir. "Keçmişin bir çox nəsillərinə tanış olan çoxəsrlik fiziki və əqli xəritələr unudulmaq üzrədir. Zərbələrin detonatorları isə artıq aydın şəkildə müəyyən edilib və qoyulub. Bu barədə bir çox proqnozçular, o cümlədən mən də bu haqda danışmış və yazmışam.

Mən şəxsən bu nəşrin hesablamaları ilə tam razıyam. Bəli, dünya böyük dünya müharibəsi ərəfəsindədir, burada güc qanunu nəinki beynəlxalq hüququn paslanmış və bərbad strukturunu, həm də müasir dövlətlərin ədalətli, dinc yanaşı yaşaması ideyasını qismən də olsa, zərərsizləşdirir.

Hamımız Yeni Dünya Nizamından əvvəlki sivilizasiya "xaosunun" və panregionalizmin bal pətəklərinin və ya nəzəriyyəsi bir vaxtlar nasist Almaniyasının ideoloqu Karl Haushofer tərəfindən irəli sürülmüş panregionların formalaşmasının şahidi və iştirakçısıyıq.

Nüvə fəlakətinin aşağı həddi səbəbindən qarşıdan gələn müharibənin parıltıları, şübhəsiz ki, təhlükəlidir. Hələ mən digər neqativ problemləri demirəm. Ümid edək ki, qarşıdan gələn geosiyasi "xaos" "nəzarət altındadır". O, uzun müddətdir ki, tanınmış dünya geosiyasi mərkəzlərinin və transmilli siyasi-maliyyə qruplarının maliyyəsi ilə ciddi analitiklər, ekspertlər və alimlər tərəfindən gizli şəkildə hazırlanıb.

Ancaq bəşəriyyət bu cür şeyləri bayağı sui-qəsd nəzəriyyələrinin təzahürü kimi markalamağa üstünlük verdi, diqqəti əhəmiyyətsiz mövzulara, xüsusən də hazırda dəbdə olan yoqa məşqçilərinin dediyi kimi, "aşağı çakralar" sferasına yönəltdi.

Nəticədə, bizim sivilizasiyanın partlayıcı problemlərinin bütöv bir arsenalı var, onların saat mexanizmi artıq işə salınıb", - deyə Rzaquliyev yekunlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*





**Elçin Bayramlı**

# Bir dəli quyuya daş atanda…

***İnformasiya müharibəsi getdikcə daha fərqli müstəvilərə keçir. Son vaxtlar baş verənlər göstərdi ki, nəinki peşəkar agent, adi bir uşaq da saxta bir informasiya ilə savadsız kütlənin başına nə oyun desən aça bilər, onun fikrini, münasibətini hara istəsən yönəldə bilər. Küçə dezinformasiyalarına reaksiyalar göstərir ki, nəinki kütləni, özlərini ziyalı, jurnalist, ictimai xadim sayanların çoxunu da asanlıqla avam yerinə qoyub aldatmaq mümkündür-necə ki, çox uzun müddətdir belə edirlər.***

Demək, artıq cəmiyyət və informasiya məkanı olaraq onlayn bazar qeybətləri erasına keçmişik, "deyirlər filandır", "eşitdiyimə görə filan şey olub", "feysbukda yazmışdılar ki ", "vatsapda yayılıb" söhbətləri ilə istənilən məlumatı sürətlə hamıya yaymaq və azı 80-90 faiz insanı buna inandırmaq mümkündür.

Bu dezinformasiya sisteminin çox fərqli istiqamətləri və fərqli üsulları var. Məsələn, neçə illərdir sosial şəbəkələrdə bir saxtakarlıq metodu tətbiq olunur- bir nüfuzlu liderin və ya ictimai şəxsin, ya da xarici dövlət başçısının şəkli qoyulur, altında istənilən fikir yazılır, şərhlərdə yüzlərlə, minlərlə səy və başdanxarab kütlə nümayəndəsi başlayır onu söyməyə. Heç kim tələb etmir ki, ay gədə, ya da ay sürtük, zəhmət olmasa bu adamın bu sözü dediyi video materialı bura qoy görək.

İstənilən nüfuzlu şəxsi, təşkilatı, şirkəti ləkələmək üçün onun rəqibləri və ya düşmənləri sosial şəbəkələrdə və ya hansısa saytda bir saxta kompratamat material yayımladır, bundan sonra həmin məlumat bütün şəbəkələrdə yayılır, sonradan bunun yalan olduğu oratya çıxsa belə, artıq cəmiyyətdə lazımi rəy yaradılıb və təkzib məlumatı onların çox azına çatır. Üstəlik, ilkin mənbəni də əksər hallarda bilımək tapmaq olmur. Çünki ilk mənbələr saxta sosial şəbəkə hesabları və ya xaricdəki saytlar olur.

Daha bir metod da milli və dövlət mənafeləri əleyhinə yayılan dezinformalarla bağlıdır. Bu işlə əsasən xarici agentura şəbəkələrinin nüfuz agentləri peşəkar şəkildə məşğul olur. Hətta bu yollarla etnik, dini, sosial, siyasi motivli qarşıdurmalar da təşkil etmək mümkündür, necə ki bəzi ölkələrdə bunu dəfələrlə effektli şəkildə təcrübədən keçiriblər.

Bu sistemdən daha çox, qərb dövlətlərinin texnoloqları geniş istifadə edir və öz düşmənləri olan ölkələr və qüvvələr haqda mənfi rəy yaratmaq üçün uğurla tətbiq edirlər. Digər ölkələr də bu metodlardan bəhrələnir.

Bunların tələsinə milyonlarla savadsız adam düşür və beləliklə su qiymətinə ictimai rəy formalaşdıra bilirlər. Bəziləri isə sadəcə savadsız gənclərdir- hardasa belə bir dezinformasiyaya rast gəlib və bu da başlayıb davam etdirməyə. Belələri özləri də bilmədən hansısa xarici dairəyə işlədiklərini və ondan alət kimi istifadə edildiyini belə anlamır.

İnformasiyanın ən qiymətli və ən vacib şey olduğunu informasiya əsrində daha aydın görmək olur. Xüsusən də gəncləri və savadsız şəxsləri aldatmaq daha asandır. Onlar bir neçə saxta informasiya ilə rahatca tələyə düşürlər və özləri də bilmədən xarici qüvvələrin informasiya ordusunda müftə xidmət edirlər.

Yalnız savadlı, təcrübəli, ağıllı, məntiqli adamları aldatmaq mümkün deyil. Onlar belə saxta dezoları görəndə-"zəhmət olmasa mənbə göstərin", "rəsmi sənəd göstərin", "yazdığınızı sübut edin" deyə tələb edir və yalanı ifşa edirlər. Təəssüf ki, beləleri çox azdır. Hamı belə etmədikcə, bu kütlənin başına nə oyun desən açmaq olacaq. Beləlırini sıradan çıxarmaq üçün çox sadə yolu var- onları kütləvi şəkildə blok etmək. Lakin kütlə bunu edəcək deyil. Çünki hansı informasiyanın hansı qüvvələr tərəfindən nə məqsədlə ortaya atıldığını dərk edə bilmir. Dərk edənlər isə nəsə etmirlər.

Beləliklə, bu sahədə vəziyyətin təhlükəli olduğu göz qabağındadır. Ona görə də, dövlət informasiya təhlükəsizliyini təmin etməlidir. Sosial şəbəkələrə, saytlara həm dövlət, həm ictimai nəzarət mexanizmləri formalaşdırılmalıdır. Bilərəkdən saxta məlumat yayan mənbələr aşkar olunaraq sərt cəzalandırılmalıdır.

# Toyun bahalısı yaxşıdır, yoxsa ucuzu?



ABŞ alimləri və tədqiqat institutlarının birgə araşdırması nəticəsində məlum olub ki, yüksək büdcəli toy edən cütlüklərin boşanma ehtimalı aşağı büdcəli toy edənlərə nisbətən daha çoxdur. Tədqiqatçılar toyuna 25.000 dollardan çox xərc çəkən hər 10 cütlükdən 1-nin 3 il ərzində boşandığını açıqlayıb.

Böyük Britaniyanın Evlilik Fondunun direktoru Harri Benson araşdırmanı belə şərh edib: “Bu məlumatlar bizə göstərir ki, ABŞ-da bahalı toylar evlilik üçün pis başlanğıcdır və təbii olaraq yeni ailəyə borc yaradır. Bu araşdırma göstərir ki, ümumiyyətlə, toyların bahalı olması bizim həyatımız üçün heç bir məna kəsb etmir, mənfi təsirlərindən başqa. Evliliyə hazırlaşan gənclər bu özəl günü öz ailələri və dostları ilə qeyd etmək üçün sadə bir məclislə evlənsələr, daha az pul xərcləsələr gələcək problemləri də az olar”. Maraqlıdır, bahalı toylar boşanmalara səbəb olurmu? Bəs maddi vəziyyəti çox yaxşı olanların nikahlarına bu vəziyyət necə təsir edir? Evlilikdən əvvəl və sonra yarana biləcək maddi çətinliklərin qarşısını almaq üçün cütlüklər nələrə diqqət etməlidirlər?



### Evliliyi səyahət kimi düşünün

Zənnimcə, evlilik insan üçün bir səyahətdir, səfərdir. Bu səyahətin maraqlı və uzun olması, habelə tərəflərin heç biri üçün cansıxıcı olmaması səyahətə çıxan cütlükdən asılıdır. Necə ki, biz səfərə çıxanda bütün planlarımızı, arzularımızı, səfərdən umduqlarımızı öz səyahət çantamızı yığarkən planlaşdırırıq, bəzilərimiz, hətta səyahət gündəliyi tutur, ediləcək hər şeyi addım-addım yazır - harada dincələcəyik, nə qədər büdcəmiz var, xərclərimizi necə planlaşdıracağıq, hamısını əvvəldən hesablayırıq, eləcə də evlənəndə belə etməliyik.

Evlənmədən öncə, nişanlananda, toya hazırlaşanda da bu planlar uzun-uzadı ölçülüb-biçilməlidir məncə. Evləndikdən sonra borc batağında üzməmək, daha rahat həyat keçirmək, ömür-gün yoldaşımızla düşüncələrimizin üst-üstə düşməsi kimi vacib detallar öncədən düşünülməlidir.

Birlikdə yaşamağa, həyatı paylaşmağa və toya hazırlıq gənclərin ən şirin həyəcanıdır, bu dövrü mal-mülk, bahalı restoran, daha bahalı zinət əşyaları, daha bahalı ev əşyaları haqqında dava-dalaşla keçirən tərəflərin ömür yolu da uzun olmur. Sağlam ünsiyyət və müzakirə mədəniyyəti ən vacib xırdalıqdır bu anlarda, əgər tərəflər bu ünsiyyəti qura bilmirlərsə, müzakirə mədəniyyətləri yoxdursa və dünya malı üçün bir-birindən incik düşürsə, bu evlilik başlamadan bitsə daha məqbuldur.

### ”Bahalı toy prestijdir”

Toya hazırlıq prosesinin ən cansıxıcı mərhələsi də şadlıq evləri və menyu qiymətləridir.



Dünyanın bütün naz-nemətlərinin düzüldüyü toy süfrəsində qaşqabaqlı oturmuş bəy-gəlin varsa, o toy işgəncədir, zülümdür. Toydan öncəki mübahisələr və fikir ayrılıqları onların evliliklərinə böyük hədədir, fərqində deyillər. Var gücləri ilə dəbdəbəli mərasim təşkil edən tərəflər bahalı toyun prestij, vizit kart olduğu qənaətindədir. Dəbdəbəli toy, alınan borclar, çəkilən xərclər evlilik ərəfəsində tərəflərin beynini o qədər məşğul edir ki, fərqində olmadan depressiv vəziyyətə düşürlər, stresslə yol yoldaşı olurlar.

Ailə büdcəsini evlilikdən öncə formalaşdıran, bütün proses boyunca ağıllı pul xərcləyən, gərəksiz xırdalıqlara fikir verməyən, bir-birinin fikrinə hörmət edən, bahalı və lazımsız prosedurlardan imtina edən gənclərin ailə həyatı da anlayışlı keçir.

Əgər tərəflər maddi cəhətdən yaxşı vəziyyətdədirlərsə, adətən, xərclərin miqdarı ilə bağlı gərginlik olmur. Lakin bu halda da mübahisə ediləsi nəsə tapmaq olur. Bir tərəf evin qiymətinin yüksəkliyindən, digər tərəf isə bahalı cehizin vacibliyindən bəhs edir. Ümumi mənzərəni gördükdə insan, bu gənclərin bir-biri ilə evlənmə səbəblərinin bahalı ev və bir sərvət dəyərində cehiz olduğu qənaətinə gəlir. Danışılan mövzu ancaq maddi məsələlərdir, kim nə alacaq, kim nəyi haradan sifariş edəcək, qızılın qramı nə qədər olacaq, gəlinlik üçün nə qədər pul ödənəcək, gəlin hansı salonda bəzənəcək, bəy üçün boğçaya nələr qoyulacaq, gəlin xonçasında nə əskikdir və s. Müzakirə edilən mövzuların çeşidi arasında mənəvi məsələlər iynə ulduzu böyüklüyündə qalır, ya müzakirə edilmir, ya da səthi keçilir.

### Qonaq hesabına toy etmək

Düşüncələr də fərqlidir. Bəzi gənclər üçün toyda möhtəşəm təşkilatçılıq olmalıdır, hər şeyin ən gözəli, ən əlası, ən bahalısı istifadə edilməlidir, minlərlə manat müqabilində məşhur müğənnilər gətirilməlidir, yeyilməyəcək qədər yemək çeşidi düzülməlidir, bəy-gəlin salona qəribə təqdimatla girməlidir, toy plovu məşhur rəqqasların təqdimatında gəlməlidir, tortun hündürlüyü 2 metr olmalıdır və s. Sadaladıqca özüm yoruldum. Bütün bunların fonunda toyun sonu salınan pullar çəkilən xərcləri ödəyəcəkmi deyə qara-qara düşünən bəy və 800 manat ödəyib bəzəndiyi salondan məmnun qalmayan narazı gəlin varsa, bu toyun nə mənası var ki?

Bəziləri üçün isə sadə bir toy mərasimi kifayətdir. Yeganə tələb hər şeyin büdcə daxilində baş tutmasıdır – kişik bir toy zalı kirayələnibsə, qonaqlar üçün oturmağa normal şərait varsa, bir neçə çeşid yemək düzülübsə, məlahətli səsi olan tanınmamış bir müğənni oxuyursa, borc yoxdursa, toydan yığılan nəmər borclara getməyəcəksə, gəlinin üzündən xoşbəxtlik, bəyin üzündən məmnunluq yağırsa, sizcə, hər şey belə daha gözəl deyilmi?

Ailə adlı səfərə çıxanda bütün bunları nəzərə alın əziz gənclər. O səfərdən əliboş, narazı, yarımçıq qayıtmayın. Əksinə, daha uzun bir yol qət etmək, daha yaxşı yol yoldaşı olmaq, daha anlayışlı bir həyat yaşamaq üçün əvvəlcədən bəzi gərəksiz prosedurları, adətləri, tələbləri özünüzdən uzaqlaşdırın. Maddi çıxarlar üzərində qurulan ailənizin ömrü uzun olmaz. Menyusu 150-200 manat olan toy evləri yerinə sadə bir mərasim təşkil edin, qonaqların yazılacağı nəmər hesabına toy planlaşdıracağınız əvəzinə öz büdcənizə uyğun toy təşkil edin, 4-5 cür isti yemək, 10 cür içki, 30 cür qəlyanaltı olacaq toy süfrəsinə çəkəcəyiniz xərci həyatınıza yatırım edin, dünyanı gəzin, özünüzü inkişaf etdirin. Sizin toyunuzda 50 cür naz-nemət olması, kimin oxuması, hansısa bahalı nümayişlərin təşkili 3 gün sonra unudulacaq, amma borclar ailə həyatınız boyu xoşbəxtliyinizə kölgə salacaq.

***Lalə Mehralı***



**Mətanət Məmmədo-**

# Hüququ pozulmuş NÖQTƏ

***Vaxtilə nöqtə bitmiş fikri ifadə edirdi. Lakin bu gün nöqtənin hüquqları pozulub, ona bitmiş fikri ifadə etməsi üçün əngəl yaradılıb. Belə qənaətə gəlmək olar ki, nöqtə də bəzi dəyərlər kimi dəbdən düşüb, öz yerində deyil, lazımsız yerlərdə hərdən görünən və tənhalaşan vergülün ardınca göndərilib. Qısası, nöqtəyə “əlvida”,- deyilib.***

Bu gün cümlənin sonuna nöqtə qoymaq artıq bitmiş fikri deyil, bitmiş münasibətləri, eləcə də “ yazma” və yaxud “çox danışma” mənasını ifadə edir. Yazıq nöqtə üçün əngəl yaradanlar, funksiyasını həyata keçirməyə maneçilik törədənlər onu o qədər gözdən salıblar ki, nöqtə olub bir düşmən. Cümlənin sonuna nöqtə qoymaq bu gün saygısızlıq, yazışmanı dayandırmaq, bitirmək anlamına gətirilib.

Bax, beləcə, yazıda hərfləri ixtisara salmaqla, durğu işarələrini lazımsız hesab etməklə zaman-zaman dilimizin qrammatik qanunlarına sitəm çəkirik. Təəssüf ki, bunun fərqində olanlar fərqində olmayanlardan o qədər azdır ki, artıq onların bu barədə üsyanını dinləyən də yoxdur. Lakin anlamaq o qədər də çətin deyil ki, dilin gözəlliyi onun qaydalarına əməl etməkdir. Və bu, hər kəsin borcudur.

Mirzə Fətəli Axundzadə 1875-ci il aprelin 21-də Həsənbəy Zərdabiyə göndərdiyi məktubda yazırdı: Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin edəcəyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir.

Bəli, M.F.Axundzadə bu dəyərli fikirləri ilə mətbuatın dilimizin gözəlliyini, qrammatik qanunlarını qorumasını məsləhət görürdüsə, filologiya elmləri doktoru, professor Nəsir Əhmədli isə deyirdi ki, ixtisasından asılı olmayaraq hər bir ziyalı ana dilini mükəmməl bilməli, yeri gəldikcə onun təbliği ilə də məşğul olmalıdır.

Təəssüf ki, bu gün ən yüksək bal toplayaraq universitetlərdə təhsil alan gənclərin əksəriyyəti belə dilin qrammatik qanunlarına riayət edə bilmir. Sosial şəbəkələrdə yazışmalar isə qrammatik qanunları birdəfəlik baltalayıb, durğu işarələrini torpağa gömüb.

Kimsə inciyər deyə artıq cümlənin sonunda nöqtə təsadüf nəticəsində rast gəlmək olur. Bunu bilən bilir, bilməyən də bilsin ki, cümlənin sonuna nöqtə qoydunsa, bu, böyük saygısızlıq kimi qarşılanır. Yəni ki, söhbəti kəs, ta bəsdir.

Maraqlıdır, deyilmi? Nöqtəyə, “əlvida” dedik. Bəs görəsən qarşıda bizi dilimizin qrammatikası ilə bağlı daha hansı yenilik gözləyir? Axı bu yeniliklər dilimizin qrammatikasını qram-qram zədələyir. Neçə ki, Həsən bəy Zərdabi deyirdi ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir... Deməli, bu qramlar bir də baxıb görəcəyik ki, dağ boyda olub və qrammatikanın da sinəsinə dağ çəkib.

Vaxt tapsaq, bəlkə Azərbaycan dilinin qrammatikasının günümüzdə nə vəziyyətdə olduğunu nəzərdən keçirək? Həm mətbuatda, həm sosial şəbəkələrdə...

# Yaxın Şərq, Şimali Afrika və Cənubi Qafqaz...






***Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşüb. Tərəflər əsas regional məsələləri, xüsusilə Yaxın Şərq, Şimali Afrika və Cənubi Qafqazdakı vəziyyəti müzakirə ediblər. Danışıqlar Çinin Tianjin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 25-ci sammiti çərçivəsində baş tutub. "Bütün bu sahələrdə Rusiya-Türkiyə əməkdaşlığı yaxşı qurulmuşdur, konkretdir, faydalıdır və deyərdim ki, etimadlıdır", - deyə cənab Putin görüşdə qeyd edib.***

## *Putin və Ərdoğan Çində bu məsələləri müzakirə ediblər*

Rusiya lideri Ankaranı Moskva üçün etibarlı, zamanın sınağından çıxmış tərəfdaş adlandırıb. O, Türkiyənin Ukrayna böhranının həllinə mühüm töhfə verdiyini də xatırladıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putini tezliklə ölkəsində qəbul etməyi gözlədiyini deyib. O vurğulayıb ki, əvvəllər verilmiş bütün dəvətlər qüvvədə qalır. "Dəvət qüvvədə qalır və biz sizi tezliklə ölkəmizdə görmək istərdik", - deyə cənab Ərdoğan Rusiya prezidenti ilə görüşü zamanı bildirib. O, Rusiya-Türkiyə münasibətlərinin yaxşılaşdığını da qeyd edib. Onun sözlərinə görə, iki ölkə arasında texniki danışıqlar yaxşı gedir və "konyuktura məsələləri" onlara təsir göstərmir.

Son bir il ərzində cənab Ərdoğan Rusiya liderini üç dəfə Türkiyəyə səfərə dəvət edib: 2024-cü ilin iyulunda Astanada keçiriləcək ŞƏT sammitində, 2024-cü ilin oktyabrında Kazanda keçirilən BRİKS sammitində və bu ilin fevralında Federasiya Şurasının sədri Valentina Matviyenkonun Türkiyəyə səfəri zamanı. Cənab Putin türkiyəli həmkarının dəvətini qəbul edib, lakin liderlər konkret tarixlə bağlı razılığa gəlməyiblər. Rusiya prezidenti Vladimir Putin Türkiyə hakimiyyətinə Ukraynadakı münaqişənin həlli üçün "siyasi və diplomatik səylərə mühüm töhfəyə" görə təşəkkür edib. O, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə deyib.

Putinin xatırlatdığı kimi, may ayından etibarən İstanbulda Rusiya-Ukrayna birbaşa danışıqlarının üç raundu artıq keçirilib. O qeyd edib ki, onlar "humanitar sahədə bir sıra praktiki məsələlərin" həllində irəliləməyə imkan veriblər. "Əminəm ki, Türkiyənin bu məsələlərdə xüsusi rolu gələcəkdə tələb olunacaq", - Vladimir Putin vurğulayıb.

Rusiya-Ukrayna danışıqlarının sonuncu raundu iyulun 23-də baş tutub. Rusiya prezidenti Vladimir Putin növbəti görüşlərdə nümayəndə heyətlərinin rəhbərlərinin səviyyəsinin artırılmasını təklif edib. Avqustun sonunda Kreml bəyan edib ki, Rusiya tərəfi hələ də sülh danışıqlarını davam etdirməkdə maraqlıdır.

***VƏLİ***

# "Sammitin əhəmiyyəti təkcə siyasi deyil..."



POLİTOLOQ ŞƏRH ETDİ

***"Çinin Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammiti, həm regional, həm də qlobal miqyasda əhəmiyyətli bir siyasi hadisədir. Bu tədbir yalnız təşkilata üzv ölkələrin deyil, eyni zamanda müşahidəçi və dialoq tərəfdaşı statusunda olan dövlətlərin də beynəlxalq əməkdaşlıq perspektivlərini müəyyənləşdirən platforma kimi çıxış edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Polad Mehdiyev deyib.***

Onun sözlərinə görə, Azərbaycanın bu sammitdə iştirakı və dialoq tərəfdaşı statusunda təmsil olunması ölkəmizin xarici siyasətində çoxvektorlu yanaşmanın bariz nümunəsidir: "Azərbaycan uzun illərdir balanslaşdırılmış və praqmatik diplomatiya yürüdür. Bu siyasətin nəticəsi olaraq ölkəmiz həm Qərblə, həm də Şərqlə əməkdaşlıq edə bilir, regional təşəbbüslərdə fəal iştirak edir: "ŞƏT ilə əməkdaşlığımızın genişlənməsi Azərbaycanın regional siyasətinə bir neçə istiqamətdə müsbət təsir göstərəcəkdir. Əvvəla, təşkilat çərçivəsində iqtisadi əməkdaşlığın, nəqliyyat-logistika layihələrinin və enerji təhlükəsizliyi məsələlərinin prioritet mövzu olması Azərbaycanın tranzit ölkə kimi rolunu daha da gücləndirəcək. Bakı-Tbilisi-Qars dəmir yolu, Zəngəzur dəhlizi layihəsi və Orta Dəhliz kimi təşəbbüslər ŞƏT ölkələrinin maraqları ilə üst-üstə düşür. Digər tərəfdən, təşkilat regional təhlükəsizlik məsələlərinə də xüsusi diqqət ayırır. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri aparmaqla yanaşı, sülhün bərqərar olunması üçün də mühüm təşəbbüslər göstərir. ŞƏT çərçivəsində əməkdaşlıq bu proseslərə beynəlxalq dəstəyin artmasına imkan yarada bilər. Bu, həm də Azərbaycanın sülhsevər mövqeyini beynəlxalq aləmdə daha da gücləndirəcək.



Sammitin əhəmiyyəti təkcə siyasi deyil, həm də sosial-mədəni müstəvidə özünü göstərir. Çünki ŞƏT yalnız iqtisadi və təhlükəsizlik təşkilatı deyil, eyni zamanda mədəniyyətlərarası dialoqu, elmi əməkdaşlığı və xalqlar arasında yaxınlaşmanı təşviq edir. Azərbaycanın zəngin multikultural dəyərləri və tolerantlıq ənənəsi bu platformada müsbət nümunə kimi təqdim edilə bilər. Ümumilikdə, Tiencində keçirilən sammit Azərbaycanın regional və qlobal siyasətdə mövqelərini gücləndirmək baxımından olduqca önəmlidir. Azərbaycan dialoq tərəfdaşı statusunu praktik əməkdaşlıq layihələri ilə daha da dərinləşdirərək həm öz milli maraqlarını təmin edəcək, həm də regionda sabitliyin və inkişafın təmin olunmasına töhfə verəcəkdir".

***Ziya Hikmətoğlu***



# Peşə məktəblərinə gedək, peşə öyrənək...

***Vaxt var idi ki, oxuyan təhsil ardınca gedirdi, oxumayan da özünə bir sənət, peşə seçirdi. Sənədlərini ya 8-ci sinifdən, ya da tam orta təhsili başa vurduqdan sonra peşə məktəblərinə verib bir peşənin sahibi olmağa çalışanlar var idi. Bunu övladlarına valideynlər də məsləhət bilir, ona peşə seçməsində bacarıqlarını əsas götürməklə kömək edirdi. Beləliklə də bir məktəbin sonuncu sinfini bitirən gənclərin təxminən 10-u ali məktəbə, 3-5-i orta ixtisas məktəblərinə, 4-5-i isə peşə məktəblərinə daxil olurdu. Peşə məktəblərində isə onlar elə yetişdirilirdi ki, sabah peşələrinin sahibinə çevrilir, həm dövlətə, cəmiyyətə xeyir verir, həm də öz ailə büdcələrini yarada bilirdilər.***





## Cəmiyyətdə baş verən 3 hadisə

Bəs sonra necə oldu? Haradasa, 90-cı illərin sonlarından etibarən cəmiyyətimizdə 3 hadisə bir-birini izləməyə başladı. Birincisi, insanlar yeni bir xəstəliyə mübtəla oldu- kütləvi şəkildə ali təhsil almaq xəstəliyinə. Deməli, bu xəstəliyin patologiyası belə idi ki, hamının uşağı təhsil almalıdır. Oxudu, oxumadı, uşaqlar təhsilli olmalıdır. İkincisi, bu, bir dəbə çevrildi. Bütün valideynlər övladlarının ali təhsil alması üçün əllərindən gələni etməyə başladılar. Üçüncüsü isə bu oldu ki, bəhsəbəs cəmiyyəti ağzına aldı. Filankəsin uşağı oxudu, mənimki nə üçün oxumasın, qonşunun uşağı ali məktəbə girdi, mənimki nə üçün geri qalsın. Sağ olsun, ozamankı Dövlət İmtahan Komissiyası da bütün bunlar üçün çox optimal şərait yaradırdı. Yəni, gündən-günə balları aşağı endirib, ödənişli ixtisasların sayını artırmaqla valideynlərə kredit götürüb, borc alıb uşaqlarını universitetlərdə oxutmalarına şərait yaradırdı. Bu isə cəmiyyətin taleyində baş verən 3 hadisənin tələbatını artıqlaması ilə ödəyirdi.

Odur ki, artıq peşə məktəblərinə ehtiyac qalmırdı. Yəni, kütləvi şəkildə peşə məktəblərindən uzaqlaşma başlamışdı. Uşağının peşə məktəbində oxumasını sanki valideynlər özlərinə sığışdırmırdı.

Həmin illərin statistik göstəricilərinə nəzər salınsa, dediklərimiz təsdiqlənər ki, peşə məktəblərinə qəbulun səviyyəsi tamamilə aşağı enmişdi. Hələ arada bəzi peşə məktəbləri bağlandı. Və yaxud da sayları azaldıldı. Nəticədə isə universitetlərdə təhsil alanların sayı artdı. Oxumayanlar isə heç bir bacarığı və ya peşə təhsili olmadığına görə özlərinə iş tapmaqda çətinliklərlə üzləşdilər.

Həmçinin də universitetə aşağı balla daxil olanlar iş tapmaqda çətinlik çəkdilər. Çünki işləmək üçün yenə də imtahan tələb olunurdu. Bu imtahanlarda isə suallar çətin olduğu üçün 200-250 bal ilə universitetə daxil olanların bu suallar qarşısında məəttəl-məəttəl baxmaqdan başqa çarəsi yox idi.

## Hansı ki...

Bəli, hansı ki, bütün dövrlərdə peşə sahibləri olub ki, onlara el arasında “sənətkar”, “usta” adları verilib. Məsələn, sürücülər tanımışıq ki, onlara yaşadığı rayonda hər kəs “usta” deyə müraciət edirdi. Çünki sənətinin sahibi idi. İllərlə insanları ən ucqar dağ kəndlərinin abadlıqdan kənar yolları ilə rayon, şəhər mərkəzlərinə aparıb gətirmiş, çalışdığı dövrdə heç bir qəza olmamışdı.

Avtomobil təmiri ilə məşğul olan peşə sahibləri tanımışıq ki, necə deyərlər, əlləri qızıl kəsib. Yaşadığı ərazidə heç də ən yüksək vəzifədə çalışanlardan pis dolanmayıb. Qazancı əla olub. Nə üçün? Çünki sənətinin sahibi olub. Qarşısına qoyduğu məqsədə müvəffəqiyyətlə çatıb, olub usta. Həm hörməti olub el arasında, həm də qazancı.

Zərgərlər tanımışıq, həqiqətən də əlləri zərgər insanlar. Onların çox böyük zövqlə və incəliklə hazırladıqları zinət əşyaları hər kəs tərəfindən təqdir olunub, sifariş sifariş üstünə gəlib. Qazancı da heç də müəllim, həkim, mühəndislərdən aşağı olmayıb.

Diş texnikləri tanımışıq. Evində və yaxud da yaşadığı kənd, qəsəbə, şəhərdə hansısa binanın bir-iki otağını kirayələyərək çalışıb. Bu işi görməsi üçün heç orta ixtisas tibb təhsili də olmayıb. Sadəcə kurslarda iştirak edib, peşənin sirlərini öyrənib. Həmin adamlar ölənədək də diş texniki kimi çalışıblar. Xəstələri də dəstə-dəstə gəlib. Çünki seçdikləri peşəni dərindən öyrəniblər. Qazancları da əsla təhsilli adamların qazancından geri qalmayıb.

Dülgərlər tanımışıq, adları yaşadıqları mahalla bir olub. Onların düzəltdiyi qapı-pəncərələr indi də evlərin yaraşığıdır. Böyük zövqlə, keyfiyyətlə taxta üzərinə köçürdüyü məharəti həmişə, necə deyərlər, müştərisini baş üzərində edib belələrinin. İnsanlar qapı, pəncərə düzəltdirmək üçün aylarla növbə gözləməli olublar. Bu ustaların evləri də, həyətləri də, dolanışıqları da ən yüksək vəzifədə çalışanlardan yaxşı olub.

Dərzi, pinəçi, daş ustaları, xalçaçı, tərəvəzçilər tanımışıq ki, əlləri zərgər olub. Nəinki yaşadıqları yerdə, qonşu şəhər-kəndlərdə də məşhur olublar. Onların sorağı ilə insanlar kəndbəkənd, şəhərbəşəhər gəlib işlərini onlara gördürməyi məsləhət biliblər. Onlar da ki, hər zaman ən yüksək səviyyədə yaşayıblar. Əllərinin zəhməti, alınlarının təri ilə özləri üçün hərtərəfli şərait yaradıblar. Heç də təhsili olanlardan geri qalmayıblar.

## Kamil bir palancı və ya yarımçıq papaqçılıq...

Beləliklə də bu qənaətə gəlmək olar ki, bəli, dahi şairimiz Nizami Gəncəvinin də dediyi kimi, kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan. Bəli, istər orta ixtisas, ali, magistratura, aspirantura, istərsə də hər hansı peşə təhsili olsun, sənətə və peşəyə kamilcəsinə yiyələnmək, onu sevmək ən üstün cəhətlərdəndir. Belə olan təqdirdə ailən üçün hər zaman qazancın olacaq. Belə olan təqdirdə heç kimin qarşısında gülünc vəziyyətdə qalmayacaqsan.

Belə isə nə üçün bu gün övladlarımızı peşə öyrənmək üçün peşə məktəblərinə yollamırıq və yaxud da hər hansı usta yanına qoymuruq. Nə üçün yenə də həmin 3 iddianı davam etdiririk? Xəstəlik, dəb və bəhsəbəs iddialarını. Axı bilə-bilə ki, övladımız müəllim olmaq üçün yetərli savada malik deyil, mühəndis, tibb bacısı, feldşer, hərbi rəhbər, psixoloq (onlarla saya biləcəyimiz ixtisaslar var) olmaq üçün qabiliyyəti, bacarığı, səriştəsi yoxdur, onu nə üçün oxumağa vadar edirik, nə üçün illərlə ailə büdcəsinə ziyan vuraraq onu müəllim yanına hazırlıqlara göndəririk? Sonda isə görürük ki, həqiqətən də bu uşaq bu sahələr üçün yaranmayıb. Biliyi, dünyagörüşü, xüsusilə də istək və arzusu müəllim, həkim, tibb bacısı, mühəndis olmaq üçün deyil. O, bu sənətlərdə özünü tapa bilmir. Elə bu səbəbdəndir ki, indi cəmiyyətimizdə yüzlərlə insan var ki, hər hansı bir təhsili alıb, lakin gözəllik salonlarında manikürçü, saç kəsən, mağazalarda satıcı, idarə, müəssisələrdə texniki işçi kimi çalışır. Bu, onun göstəricisidir ki, valideynlərinin iddiaları ilə zorla bir ali təhsil alıb, artıq özünü dərk edəndən sonra isə düşünüb ki, yox, bu sahə mənlik deyil. Yenidən hər hansı kursa, təlimə getməklə bacardığı işin qulpundan yapışmağa çalışıb. Bax, bu da son nəticə: ali təhsilli manikürçü, dərzi, pinəçi, fəhlə və sair.

## Belə isə...

Düşünməyə dəyər. Hələ də cəmiyyətimizdə ali təhsillə bağlı xəstəliyin, dəbin və bəhsəbəhsin tüğyan etdiyi bir şəraitdə söyləmək yerinə düşər ki, düşünmək gec deyil. Özümüzə əziyyət verməyək. Qazandığımızı digər övladlarımızın ruzisindən kəsib hazırlıqlara verməyək. Uşaqlarımızın kiçik yaşlarından hansı peşəyə, sənətə maraqları olduğunu kəşf edək. Böyüdükcə onları istədikləri sahələrə istiqamətləndirək. Qoy onlar ali təhsilli də olsunlar, orta ixtisas təhsilli də. Qoy onlar dərzi, dülgər, manikürçü, tərəvəz ustası, xalçaçı, zərgər də olsunlar. Hazırda ölkəmizdə fəaliyyət göstərən peşə təhsili məktəblərində onlarla peşə təklif olunur. Onlardan yararlanmağa çalışmaq lazımdır.



Baxmayaraq ki, bu gün də Dövlət İmtahan Komissiyası tərəfindən ballar endirilir. 200 bal toplayan abituriyentlərin ali məktəblərdə təhsil almaları üçün şərait yaradılır. Lakin gəlin valideyn olaraq özümüz daha dərindən düşünək. Bizə bunların hansı sərf edir? 2-3 il hər ay 100-200 manat verib hazırlığa göndərdiyimiz uşaqlarımızın son nəticə olaraq 200 bal toplayıb ali təhsil almasımı, yoxsa elmə marağının olmadığını hiss etdiyimiz andan etibarən hər hansı bir peşəyə yönləndirilməsimi? Onsuz da oxumaq həvəsi olmayan gənc ali təhsil alsa da, özünü başqa bir peşədə tapacaq. Belə isə ailə büdcəsinə zərər vurmağa dəyərmi?

Axı peşələr də cəmiyyət üçün gərəkdir. Bəs hər birimiz ali təhsil alıb müəllim, mühəndis, həkim və sair olacağıqsa, bizim paltarımızı kim tikəcək, dırnaqlarımızı kim manikür edəcək, saçlarımızı kim kəsəcək, maşınımızı kim təmir edəcək, xəyalımızdakı zinət əşyasını və yaxud qapı-pəncərələrimizi kim düzəldəcək?..

***Mətanət Məmmədova***

# “Ənənəvi ailə ilə müasir ailə modeli arasında mübahisələr getdikcə dərinləşir”



*“Ailə institutu ilə bağlı həm Azərbaycanda, həm də dünyada klassik ənənəvi ailə təsisatları ilə bağlı ictimai, mədəni, etik və kulturoloji mübahisələr getdikcə qızışır. 18-19-20-ci əsrin ailəsi və müasir dövrün ailəsi arasında böyük fərqlər varmı? Gənclər niyə klassik ailə dəyərlərini yaşatmaq istəmirlər? Yeni modelin ailə formatları bizim ənənəvi, tutalım, Azərbaycan milli ailə dəyərlərini məhv edir, yoxsa onun davamıdır"?. Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.*



KULTUROLOQ FİKRİ

Onun sözlərinə görə, bu cür ictimai müzakirələr hələ çox davam edəcək, amma artıq qəti qərarların qəbul edilməsinin zamanıdır. Azərbaycanda klassik ailə tipi var. Bunlar daha çox kənd yerlərində və şəhərə təzə köç etmiş ailələrdə mövcuddur. Amma onlar da yavaş-yavaş ətrafdakılərin təsiri nəticəsində və ya dəyişən dünya baxışları, həyata baxışları nəticəsində aşınmaya məruz qalır və ya reformaya gəlir. Klassik ənənəvi ailə dəyərləri öz yerini daha çox modern yeni ailə təsisatlarına, formatlarına verir: ”Ailə institunun zəifləməsi nədir? Biz ailə deyəndə klassik ata, ana, iki və ya beş uşaqdan ibarət bir ailəni nəzərdə tuturuq. Onlar mütləq bir yerdə yaşamalıdırlar. Ata-ana ayrıla bilməz. Sona qədər qırışsalar da, mübahisə etsələr də, dalaşsalar da, ailə həyatına qətl və ya dava-dalaşla son qoysalar da, onların ayrılması yaxşı baxılmır. Uşaqlar psixoloji travmalarla böyüyür. Atasdakılər nə deyəcək, xətamdan, anamdan, qohum, qonşularına ayıbdır və s. kimi psixoloji gərginlikdə yaşayan bir ənənəvi ailə nəzərdə tutulur. Bu ailə tək deyil. Bunun ətrafında qaynanalar, qaynatılar, qonşular, qohumlar, eyni zamanda tanışlar və icma durur.

Amma müasir dövrün ailəsi biraz fərqlidir. Məsələn, Instagram, Facebook, Twitter üzərindən tanışılan, sosial şəbəkələrdə, iş yerində, ali məktəbdə tanışılan gənclər tərəfindən qurulmuş, heç bir məsuliyyət daşımayan, məsuliyyət daşımaq istəməyən şəxslər tərəfindən formalaşdırılmış, hər iki tərəfin işlədiyi, bir və ya iki uşağın övladlandığı bir modern ailə modeli. Bəzən bu ailədə insanlar rəsmi nikaha girmirlər, ictimai münasibətlərdə olurlar. Bir çox halda ayrılsalar belə, yenə dost qalırlar. Amma konfliktləri birgə həll etməyə çalışırlar, uşaqları birgə böyütməyə çalışırlar.Çox maraqlıdır ki, mən çox fikir vermişəm. Azərbaycanda bir çox ailə var ki, həm özləri boşanırlar, həm uşaqları boşanırlar və ya uşaqları müxtəlif formatda ailə münasibətlərində olurlar, ictimai münasibətlərdə olurlar. Amma televiziyaya çıxıb danışanlar da milli mənəvi dəyərlərdən danışırlar, nağıl danışırlar. Gənclər də bunların həyatlarını tanıyır. Kiçik ölkədə, sosial şəbəkələrdə hər şey yayılır. Bir-birimizə tez informasiya dəyişirik və məlumatlar toplayırıq. Maraqlanırıq və inşallah görürük ki, bunun həyatında, bunun ailəsində o qədər problemlər var və ya bunun ailəsi liberal ailə tipinə məxsusdur.

İnsanoğulları deyək, bəşəri bir universal düşüncə tərcihi var. Və biz məcburuq ki, yaranan ailə modellərinin özünü də qəbul edək. Əlbəttə ki, gənclər ya Azərbaycandan çıxıb gedəcəklər, ya da daha radikal formatlara əl atacaqlar. Və ya sadəcə indiki kimi, başlayan hadisələr kimi. Atalarına, elinə deyəcəklər, onun katına və ya pula yığmaq üçün evlənəcəklər. Üç aydan, altı aydan sonra və ya bir uşağı olandan sonra ayrılacaqlar. Sonra da mübahisələr başlayacaq. Salimiyyət, evin bölünməsi, uşağın böyüdülməsi ilə bağlı məsuliyyətin kimdə olacağı və s. və ya düşmənçilik ediləcək. Bütün bunlar əlbəttə ki, ailə dəyərlərinə böyük təsir edir. Bəziləri deyir ki, zəifləyib, bəziləri deyir ki, ailə içində reforma tələb edir. Və reforma istedadları yaparaq çıxardılar. Azərbaycan ailəsi bu istedada hazırdırmı? Azərbaycan cəmiyyəti bu istedadlara gəlirmi? Əslində gəlir, amma sözdə və ya düşüncə tərzində və ya ətrafdakılərin yanında olanda buna qarşı çıxır.

Bu ailə tipi bizim ənənəvi düşüncə ilə yaşayan mühafizəkar fikirlərlə XXI əsri anlamaq istəyən Azərbaycan insanının mübahisəsinə və müqavimətinə səbəb olur. Azərbaycan insanı hər kəsi özü kimi görmək istəyir. ”Xalçaya bürünün, palaza bürünün, elinə sürünün” prinsipi, ailə dəyərlərinə də özünü göstərir. Hər kəs bir-birini kopyalamağa çalışır. Bizim toylar, yaslar kimi, ad günləri kimi, məclislərimiz kimi ailələr də kopyalanır. Və müasir ailə tipini, təsisatını görmək istəmir. Gənclər bu ailə, onları sıxan, onların xoşuna gəlməyən, yeniliyi qarşısına alan ailə təsisatlarını imtina etməyə çalışırlar. Həm də müasir dövrdə çağdaş modern ailə formatları var ki, onlar da Azərbaycana gəlir. Məsələn, tək ana bir uşaqla, dua ata bir iki uşaqla, hətta daha liberal, radikal ailə münasibətləri və ya təsisatları, formatları var. Qadın-qadın, kişi-kişi ailə münasibətləri. Biz bunları istəsək-istəməsək də dünyadan gəlsə, Azərbaycanda da yaransa, biz bunları qəbul etməyə məcburuq”.

**Ziya Hikmətoğlu**

# “Azərbaycanın xarici siyasətində Qarabağ məsələsi prioritet təşkil edirdi”




“Azərbaycan Prezidenti cənab İlham Əliyevin baş tutan ardarda olan xarici səfərləri Azərbaycanın xarici siyasətini, İkinci Qarabağ müharibəsi və anti-terror əməliyyatlarından sonrakı həyata keçirdiyi xarici siyasət kursunun təzahürü kimi dəyərləndirilə bilər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib. Onun sözlərinə görə, burada bir neçə nüans var: “İstər İkinci Qarabağ müharibəsinə qədər, istərsə də antiterror əməliyyatlarına qədərki dövr ərzində Azərbaycanın xarici siyasətində Qarabağ məsələsi prioritet təşkil edirdi. Yəni Azərbaycanın atdığı bütün siyasi, iqtisadi, hərbi addımların arxasında bu və ya digər formada Qarabağ məsələsinin həllinə yönəlmiş səylər dayanırdı. Amma İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatlarından sonrakı mərhələdə Azərbaycanın tutduğu mövqeyin ən əsas məsələlərdən biri də məhz xarici siyasətdə vacib oyunçulardan birinə çevrilmək istəyi gəlir. Yəni Azərbaycan sıradan passiv bir ölkə kimi qalmadı. Bu dəfə artıq yeni bir mərhələ başladı. Düzdür, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla İran arasında müəyyən gərginliklər oldu. Amma İranda Məsud Pezeşkiyanın prezident seçilməsindən sonra dəyişikliklər müsbətə doğru çevrildi”.

Politoloq fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Azərbaycan bu gün Çində Şanxay Əməkdaşlıq Təşkilatının sammitində aktiv iştirak edir: “Baxmayaraq ki, Azərbaycan dialoq tərəfdaşıdır. Amma Azərbaycanın müşahidəçi və tamhüquqlu üzv olması ilə bağlı Çinin verdiyi mesajlar, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında, COP-29-da iştirakı, Çinlə strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi, həmçinin ABŞ və Türkiyə ilə olan sıx əlaqələr ölkənin xarici siyasətini çoxşaxəli və balanslı şəkildə formalaşdırır. Bu, Azərbaycanın öz milli maraqlarına uyğun olaraq, müxtəlif regional və qlobal qüvvələr arasında balans yaratmaq bacarığını göstərir. Belə bir çoxvektorlu siyasət, xüsusən də dünyanın geosiyasi və iqtisadi dinamizmi nəzərə alındıqda, Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirir. Bundan əlavə, Qoşulmama Hərəkatı və onun yaratdığı dividentlər və s. bunların hər birisi Azərbaycan üçün və onun xarici siyasəti üçün çox önəmlidir.

Düşünürəm ki, indiki məqamda Azərbaycanın xarici siyasəti o formada qurulur ki, burada ölkəmiz aktiv siyasi proseslərin əsas iştirakçılardan biri kimi özünü nümayiş etdirir. Bu baxımdan cənab Prezident İlham Əliyevin düşünülmüş, çoxvektorlu, milli maraqlara söykənən addımları Azərbaycanı yaxın gələcəkdə regionun əsas faktorlarından birinə çevirəcək”.

**Arzu Qurbanlı**

# Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlara dair Elan!

Hörmətli “Bakı-Pivə” ASC səhmdarı,

Bildiyiniz kimi ”Bakı-Pivə” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin və Cəmiyyətin Nizamnaməsinin tələblərinə uyğun olaraq 18.08.2025-ci il tarixində saat 10:00-da AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Şamaxı Şossesi (Xırdalan), ev 1 ünvanında Cəmiyyətin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçirilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-5.3-cü maddəsinin tələblərinə əsasən Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

Odur ki, yuxarıda yazılanları nəzərə alaraq 18.08.2025-ci il tarixində Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar haqqında aşağıdakı məlumatları Sizə təqdim edirik :

**1.** Növbədənkənar ümumi yığıncağın sədri və katibin seçilməsi təsdiq edilmişdir (lehinə).

**2.** Hesablama komissiyasının yeni üzvlərinin seçilməsi təsdiq edilmişdir (lehinə).

**3.** Cəmiyyətin aidiyyəti şəxs olan “Carlsberg Azerbaijan” MMC ilə bağlanılması nəzərdə tutulan (alqı-satqı) əqdi təsdiq edilmişdir (lehinə).

**4.** Cəmiyyətin Müşahidə Şurasına yeni üzvlərin seçilməsi təsdiq edilməmişdir (əleyhinə).

Qiyabi səsvermə formasında həyata keçirilmiş Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar Elan edilərək Sizə təqdim edildi.

***Xoşbəxtlik insan həyatında böyük ölçüdə yer tutan, həm mürəkkəb, həm də çoxölçülü bir anlayışdır. Bəzi insanlar üçün xoşbəxtlik fizioloji təcrübə olaraq qiymətləndirilir, xoşbəxtliyi fiziki hiss etməklə yaşadığını düşünür. Bəzi insanlar üçün xoşbəxtlik emosional vəziyyəti təmsil edir, mənəvi aclığın doyurulması kimi xarakterizə olunur. Buna görə də xoşbəxtliyi anlamaq üçün həm bioloji, həm də psixoloji amilləri nəzərə almaq lazımdır.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması " istiqaməti çərçivəsində hazırlanıb.*

# Xoşbəxtsinizmi?

Xoşbəxtlik fizioloji olaraq hormonların ifrazı və orqanizmdə bəzi reaksiyaların özünü büruzə verməsidir. Emosional olaraq isə daxili rahatlıq, sevinc və sevgi hisslərinin təzahürüdür. Fizioloji baxımdan xoşbəxtlik hormonlarla sıx bağlıdır. Beyində istehsal olunan dopamin, serotonin və endorfin kimi hormonlar xoşbəxtlik hisslərinin yaranmasında mühüm rol oynayır. İnsan istədiyi bir şeyə nail olduqda və ya zövq aldığı bir işlə məşğul olduqda, orqanizmdə dopamin ifraz olunur və xoşbəxtlik hissini artırır. Serotonin əhval-ruhiyyəni tənzimləyir, endorfin ağrıları azaldır, stressi idarə edir və xoşbəxtlik hissini artırır.

Xoşbəxtlik insanın daxili emosional vəziyyətinə əsaslanır. Xoşbəxtlik, özünü yaxşı hiss etmək, daxili rahatlıq tapmaq, yaşamaqdan mənəvi həzz almaq və sevilmək kimi emosional vəziyyətləri əhatə edir. Bu amillər insanın dünya ilə münasibəti, özünü dərk etməsi və həyatına verdiyi məna ilə formalaşır. Yaxşı hiss etdiyin mühitdə yaşamaq, yaxşı dostlarla münasibət qurmaq, dəyər vermək, dəyər görmək xoşbəxtliyi artıran amillərdəndir.

Xoşbəxtlik həm də psixoloji proseslərlə bağlıdır. Müsbət düşünmə, minnətdarlıq hissi, baş verənləri asan qəbul etmək kimi zehni vərdişlər xoşbəxtliyi artıra bilər. Stresslə mübarizə bacarıqlarının inkişaf etdirilməsi, problem həll etmə bacarıqlarının əldə edilməsi və sağlam münasibətlərin qurulması da xoşbəxtliyi yaradan amillərdəndir. Stəkanın dolu tərəfindən baxa bilmək bacarığı insan psixologiyası, xoşbəxtliyi üçün əhəmiyyətli bacarıqdır. Həmiçşə, hər şeyə şübhə ilə yanaşan, hər addımda müsbətləri yox, mənfiləri görən insanlar xoşbəxt ola bilmir.

Sağlam qidalanmaq, davamlı olaraq idman etmək, sahib olduqlarına, əldə etdiklərinə görə şükr etmək, vaxtın, zamanın əsiri olmadan dilədiyi kimi yaşaya bilmək, təmənnasız sevmək və sevilmək insanı daha xoşbəxt edə biləcək əsas amillərdir. Xoşbəxtlik insanın bütün çatışmazlıqlara, narahatlıqlara fikir vermədən təbiətlə, cəmiyyətlə və özü ilə harmoniya əldə etməsidir. Əsl xoşbəxtlik insanlıqdan uzaqlaşmayan, əlindəkilərlə yetinən, əldə etdiklərinə görə şükür edənlərin daxili rahatlığıdır. Xoşbəxtlik məqsəd deyil, məqsədə çatanda bitən yarış da deyil, xoşbəxtlik bizim daxili rahatlığımızı tapa bilməyimizdir.

Həqiqi xoşbəxtliyə çatmağın ən vacib addımlarından biri ürəkdən istəmək, təmənnasız verməkdir. Vermək dedikdə yalnız maddi şeylər nəzərdə tutulmur, təmənnasız sevmək, təmənnasız dinləmək, təmənna güdmədən yaxşılıq etmək də özündən nəyisə verə bilməkdir. Necə ki bir tingdən yüzlərlə alma əldə edirik, eləcə də qarşımızdakı insana verdiyimiz hər bir xoş duyğu, xoş söz, müsbət düşüncə bizə sonsuz xoşbəxtlik olaraq geri dönür.

Həmişə təmənnasız sevgi verməyindən, təmənnasız yaxşılıq etməyindən, amma qarşılıq görməməyindən şikayət edənlər də var, bu əslində təmənnasız sevgi deyil. Bu qeyri-səmimi davranışdır, yaxşı insan adlandırılmaq üçün edilən məcburi hərəkətdir. Təmənna güdmədən edilən jestlər birinin həyatını asanlaşdırırsa və siz bunu bilirsinizsə bu ən böyük məmnunluqdur. Bu, əsl xoşbəxtlikdir.

Xoşbəxtlik həyata müsbət reaksiya hissidir. Xoşbəxtliyi dərk etmək üçün həyata fərqli gözlərlə baxmaq, onu başqa cür qavramaq və başqa cür hiss etmək lazımdır. Xoşbəxtlik ağıl və ürəyin bir-birinə bağlı olmasıdır və əsla maddi məsələlərlə əlaqəli vəziyyət deyil. Bizi xoşbəxt və ya bədbəxt edən şey özümüzə və həyata baxışımızdır. Xoşbəxt insan emosiyalarını boğmayan və onları sərbəst ifadə edə bilən, olduğu kimi yaşmağı bacaran insandır. İnsan yeri gələndə ağlamağı, gülməyi, hirslənməyi, sevməyi, imtina etməyi, boyun əyməməyi bacarmalıdır.

Xoşbəxtlik bizə faydalıdır, o sağlam immunitet yaradır, müsbət emosiyalar insanın həyat keyfiyyətini yaxşılaşdırır. Nə qədər xoşbəxt olsaq, nə qədər minnətdarlıq hissi ilə təchiz olunsaq bir o qədər çox yaşayırıq. Xoşbəxtliyi idarə etmək öz əlimizdədir, çünki xoşbəxtliyi təmin edən duyğuları idarə etmək də bizim öz əlimizdədir. Şəfqət göstərmək, şükür etmək, minnətdar olmaq, təmənna güdmədən yaxşılıq etmək insanın kamilliyinin göstəricisidir. Kamil olan hər insan isə mütləq xoşbəxtdir.

***Lalə Mehralı***













SON SƏHİFƏ
SƏS
2 sentyabr
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Molla kəbini ilə evlənənlərə əmlakdan pay düşürmü

*"Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 1.5-ci maddəsində deyilir ki, Dini kəbinkəsmə (dini nikah) hüquqi əhəmiyyətə malik deyildir. Bu müddəa müvafiq icra hakimiyyəti orqanının yaradılmasınadək bağlanmış dini nikahlara və onların təsdiqinə dair sənədlərə, doğum, nikahın bağlanması, nikahın pozulması və ölüm haqqında sənədlərə aid deyildir".*





## AÇIQLANDI

Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: "Yəni, bu hal dövlətin qanuni tələblərinə uyğun olaraq rəsmi olaraq tanınmır və ona görə də hüquqi olaraq heç bir hüquq və ya məsuliyyət yaratmır. Əgər ərlə arvad nikaha daxil olarkən və ya ondan sonra nikah müqaviləsi bağlamayıblarsa, onda nikahdan sonra onlar tərəfindən əldə edilən əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən əmlaklar ər-arvadın ümumi birgə mülkiyyəti sayılır.

Ailə Məcəlləsinin tələblərinə əsasən ər-arvadın nikah müddətində əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Onların əmlakdakı payı bərabər hesab olunur. Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydasında təsdiq edilə bilər. Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir.

Ər-arvadın ümumi əmlakı dedikdə, ailə birliyində əldə edilmiş və pulla qiymətləndirilə bilən bütün aktivlər və passivlər nəzərdə tutulur. Aktivlərə daşınar və ya daşınmaz əşyalar üzərindəki mülkiyyət və digər əşya hüquqları, müqavilədən və ya qanundan irəli gələn tələb hüquqları, hüquqi şəxslərdə (şirkətlərdə) payları, əqli mülkiyyət hüquqları (ixtira və s.), gəlirlər və s. predmetlər, passivlərə isə ümumi öhdəliklər aiddir (kreditlər və s.).

Ailə birliyi ümumi təsərrüfatı özündə ehtiva etdiyi üçün nikah müddətində əldə edilmiş əmlakın ər-arvadın ümumi vəsaiti hesabına qazanıldığı ehtimal olunur.

Ailə Məcəllənin 32.3-cü maddəsinə əsasən ki, nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan arvad (və ya ər) da ümumi əmlak üzərində hüquqa malikdir. Ər-arvaddan birinin şəxsi əmlakı, yəni nikaha daxil olmazdan əvvəl artıq onlara məxsus olan əmlak da ümumi birgə mülkiyyət sayıla bilər".

*Ayşən Vəli*

# Azyaşlını zorla dilənçiliyə sövq edən şəxs 7 il həbs olundu

***Azyaşlını zorla dilənçiliyə sövq edən şəxs həbs edilib. SİA xəbər verir ki, DİN-in İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən daxil olan əməliyyat məlumatı əsasında keçirilən tədbir nəticəsində İlqar Ələsgərov yetkinlik yaşına çatmayan bir nəfəri məcburi əməyə cəlb etməkdə şübhəli bilindiyi üçün saxlanılıb.***



Araşdırmalarla onun zərərçəkəni paytaxtın müxtəlif ərazilərində avaraçılıq və dilənçiliyə sövq etməklə maddi gəlir əldə etdiyi sübuta yetirilib.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin yetkinlik yaşına çatmayan şəxsi məcburi əməyə cəlb etmə maddəsi ilə başlanılan cinayət işi üzrə istintaq yekunlaşaraq baxılması üçün məhkəməyə göndərilib. İ.Ələsgərov Cinayət Məcəlləsinin qeyd olunan maddəsi ilə təqsirli bilinərək 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

# XXI əsrdə La Liqada penalti vuran ən gənc futbolçu oldu...




Kataloniya təmsilçisi "Barselona"nın ispaniyalı vingeri Lamin Yamal İspaniya çempionatının III turunda "Rayo Valyekano" ilə matçın 40-cı dəqiqəsində penaltini dəqiq yerinə yetirərək, XXI əsrdə La Liqada ən gənc penalti vuran futbolçu olub. Bu barədə "Squawka" statistika portalı məlumat yayıb. Portalın məlumatına görə, 1:1 hesabı ilə yekunlaşan qarşılaşma zamanı Yamalın 18 yaşı (18 yaş, 49 gün) olub.

# Qızılın qiyməti bütün zamanların ən yüksək rekorduna çatdı!



"Comex" birjasında (Nyu-York əmtəə birjasının bölməsi) 2025-ci ilin dekabrında çatdırılacaq qızıl fyuçerslərinin qiyməti troya unsiyası üçün 3 550 dollardan yuxarı qalxaraq bütün zamanların ən yüksək həddinə çatıb. Ticarət platformasında əksini tapan məlumatlardan aydın olur ki, dünən Bakı vaxtı ilə saat 06:48-ə olan məlumata görə, qiymətli metalın qiyməti bir troya unsiyası üçün 3 550,20 dollar (+0,97 %) təşkil edib. Bakı vaxtı ilə saat 06:53-ə olan məlumata görə, qızılın qiyməti artımını bir troya unsiyası üçün 5 430,30 dollara qədər azaldıb (+0,4 %).

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000